Kərbəla Həqiqətləri

Kərbəla Həqiqətləri

Müəlliflər

Hacı Heydər *Məmmədov*

Hacı Samir Ağayev

Kərbəlayi Rza Əliyev

Məşhədi Müslüm Müslümov

Vüsal Əli

Bakı 2014

Məhərrəm ayının əməlləri

Bu ay Məsumlar (ə) və onların davamçıları üçün qəm və qüssə ayıdır. Həzrət İmam Rzadan (ə) nəql edilir: “Məhərrəm ayı gəldiyi zaman heç kim atamı gülərüz görməzdi. Onuncu gününə qədər bu qəm və qüssəli durumu davam edərdi. Aşura günü çatanda isə onun müsibət, qəm-qüssə və göz yaşı günü olardı. Buyurardı: Bu gün elə bir gündür ki, Hüseyn (ə) şəhid olmuşdur”.

Məhərrəm ayının ilk gecəsi: İbni Tavus “İqbal” kitabında bu gecə haqqında bir neçə namaz zikr etmişdir: 1. Yüz rükət namazdır ki, hər bir rükətində “Həmd” və “Tövhid” surələri oxunur. 2. İki rükətli namazdır ki, birinci rükətdə “Həmd” və “Ənam” və ikinci rükətdə isə “Həmd” və “Yasin” surəsi oxunur. 3. İkirükətli namazdır ki, hər bir rükətində “Həmddən” sonra 11 dəfə “Tövhid” surəsi oxunur. Peyğəmbərdən (s) nəql edilir: “Hər kim bu iki rükət namazı bu gecədə yerinə yetirərsə, sabahısı günü oruc tutsun. Əgər belə edərsə bütün il boyu xeyir iş görmüş şəxs kimi olar. Həmin il boyunca (Allah tərəfindən) qorunar. Əgər ölərsə, behiştə gedər”.

Birinci gün: Oruc tutmaq. Riyan ibni Şəbib İmam Rzadan nəql edir: “Hər kim bu günü oruc tutarsa və Allahı çağırarsa, Allah onun duasını yerinə yetirər. Necə ki, Zəkəriyyanın (ə) duasını qəbul etmişdi".

İmam Rzadan (ə) nəql edilir: “Peyğəmbər (s) Məhərrəm ayının

birində iki rükətli namaz qılardı. Qurtarandan sonra əllərini göyə qaldıraraq bu duanı edərdi: Allahım, Sən əzəli Məbudsan! Bu Sənin ilindir. Bu aydan Səndən şeytanın şərrindən uzaq olmağımı, günah işlədə bilən nəfsə qələbə çalmağımı, məni Sənə yaxınlaşdıracaq işlərlə məşğul olmağımı istəyirəm. Ey Böyük və böyüklərin Sahibi! Ey sığınacağı olmayanların Sığınacağı! Ey o kəsin qəm yoldaşı ki, onun qəm sirdaşı yoxdur! Ey o kəsin pənah yeri ki, başqa pənah yeri yoxdur! Ey o kəsin fəryadına çatanı ki, fəryadına çatan yoxdur! Ey o kəsin himayəçisi ki, onun himayəçisi yoxdur! Ey o kəsin xəzinəsi ki, onun xəzinəsi yoxdur! Ey yaxşı imtahan edən, ey ümidlərin böyüyü, ey gücsüzlərin izzəti, ey qərq olmuşların nicat verəni, ey həlak olanları xilas edən, ey nemətlər bəxş edən...".

Üçüncü gün: Həzrət Yusifin (ə) zindandan azad olduğu gündür. Kim həmin günü oruc tutarsa, Allah Təala çətin işləri onun üçün asan edər. Qəmi ondan uzaqlaşdırar. Duası qəbul olar.

Doqquzuncu gün: Tasua günüdür. İmam Sadiqdən (ə) nəql edilir: "Tasua o gündür ki, İmam Hüseyni (ə) və tərəfdaşlarını Kərbəlada mühasirəyə aldılar. Şam ordusu Həzrətlə döyüşmək üçün dairə qurdu. İbni Mərcanə və Ömər Səd ordunun çoxluğuna görə sevinirdilər. İmam Hüseyni (ə) və səhabələrini zəif hesab edirdilər. Həzrətin köməyinə heç kimin gəlməyəcəyinə arxayın oldular və İraq xalqının ona yardım etməyəcəyinə əminlik əldə etdilər".

Onuncu günün gecəsi: Aşura gününün gecəsidir. Seyid Tavus bu gecə üçün çox sayda namaz və dualar zikr etmişdir. O cümlədən yüz rükət namaz vardır ki, hər rükətində "Həmd" surəsindən sonra üç

dəfə “tövhid” deyilir və sonra bu duanı oxuyursan: "Allah münəzzəhdir, Allaha həmd olsun, Allahdan başqa məbud yoxdur. Allah böyükdür”.

Başqa bir hədisdə tövbə etmək də zikr edilmişdir. Gecənin sonunda dörd rükət namaz zikr edilmişdir ki, hər bir rükətində “Həmddən” sonra “Ayətil-kürsünün” hər hansı bir ayəsi, “Tövhid”, “Nas”, “Fələq” surələrini on dəfə oxumaq. Salamdan sonra yüz dəfə “Tövhid” surəsini oxumaq. Başqa bir namaz dörd rükətli namaz vardır ki, hər rükətində “Həmddən” sonra 50 dəfə “Tövhid” surəsini oxumaq lazımdır. Bu namaz Əmirəl-möminin (ə) namazına bərabərdir və çox fəzilətlidir. Namazdan sonra Allahı çoxlu zikr edin və Peyğəmbərə (s) salavat göndərin. Nə qədər bacarırsınızsa əhli-beytin düşmənlərinə lənət deyin. Bu gecədə ibadət etmək bütün mələklərin ibadəti kimidir. Bu gecənin ibadəti 70 ilin ibadətinə bərabərdir. Əgər bir kəs bu gecə Kərbəlada olarsa, İmam Hüseyni (ə) ziyarət etsin və o Həzrətin hərəminin yanında səhərə qədər dua etsin. Allah onu, şəhidlər sırasında məhşur edər.

Aşura günü: Həzrət Hüseynin (ə) şəhid olan günüdür. Bu gün Məsumların (ə) və onların davamçılarının qəm və qüssə günüdür. Bu gün yaxşı olar ki, müsəlmanlar dünya işləri ilə məşğul olmasınlar. Göz yaşı töksünlər və mərsiyə desinlər. İmam Huseynə(ə) əzadarlıq keçirtsinlər. Sanki övladları və yaxın əzizlərinin əzadarlığını keçirirmiş kimi bu işə şövqlə yanaşsınlar. "Aşura" ziyarətini oxumaqla Həzrəti (ə) ziyarət etsinlər. Həzrətin qatillərinə lənət oxusunlar. Həmin günü oruc tutmayın, ancaq yemək və içməyə meyl

göstərməyin. Əsrdən sonra müsibət əhlinin iftar etdiyi yeməklərdən yeyin... qatıq və süd kimi. Əllamə Məclisi buyurmuşdur: “Yaxşı olar ki, Məhərrəm ayının doqquzuncu və onuncu günü oruc tutmayasınız. Çünki Bəni-Ümməyə bərəkət olsun deyə bu iki günü oruc tuturdular. Bu iki gündə oruc tutmağın fəzilətli olmasını Peyğəmbərə (s) nisbət verməklə yalan deyirdilər. Əhli-Beytdən (ə) bu iki gündə oruc tutmaq haqqında çox sayda hədis nəql edilmişdir. Bu iki gündə, xüsusilə də Aşura günündə oruc tutmaq məzəmmət olunmuşdur".

Həzrət Rzadan (ə) nəql edilir: “Hər kim Aşura günü öz ehtiyaclarını unudaraq iş dalınca getməzsə, Allah onun dünya və axirət ehtiyaclarını ödəyər. Hər kim Aşura günü qəmgin və ağlar olarsa, Allah Qiyamət gününü onun sevincli və xoşhal olan günü edər. Behiştdə nəzərləri bizimlə aydın olar. Hər kim Aşura günü bərəkət günü adlandırar, həmin günü evi üçün nəsə alarsa, Allah aldığı şeyi onun üçün mübarək etməz. Qiyamət günü Yezid, Ubeydullah ibni Ziyad və Ömər ibni Sədlə məhşur olar".

Ona görə də bu günü insan dünya işləri ilə məşğul olmamalıdır. Ağlamalı və mərsiyə deməlidir. Ev əhlinə göstəriş verin ki, o Həzrətin əzasını saxlasınlar. Matəm və əzadarlıqla məşğul olsunlar.

Məhərrəm ayının 1-ci günü

Ali-Məhəmmədin (s) hüznlü günlərinin başlanması

2. “Şebi - Əbi Talib” hadisəsi
3. Zəkatın ilk toplandığı gün
4. “Zatür-rüqa” müharibəsi
5. Həzrət Hüseynin (ə) karvanının Bəni Məqatilin qəsrinə çatması

6. Mədinə xalqının Yəzid əleyhinə qiyamı

7. Əmirəlmöminininin (ə) övladı Məhəmməd ibn Hənəfiyyənin vəfatı

1) Ali-Məhəmmədin (s) hüznlü günlərinin başlanması…

Məhərrəm ayının ilk günü Əhli-beytin (ə) hüzn ayının ilk günüdür. O gün bütün peyğəmbərlər, mələklər, Əhli-beyt (ə) sevən hər kəs və onların ardıcılları hüznlü olur. Rəvayətdə deyilib: Hər il Məhərrəmin ilk günündən aşura günündək Şəhidlər ağasının parça-parça olmuş köynəyi Allahın ərşindən asılır və bütün aləmi qəm bürüyür. (Xəsaisüs-zeynəbiyyə, s.)

Məhərrəm imam Rzanın (ə) kəlamında:

Rəyyan ibn Şəbib deyir: “Məhərrəmin ilk günü İmam Rzanın (ə) xidmətinə müşərrəf oldum. Həzrət söz əsnasında buyurdu: Ey Şəbibin oğlu! Cahiliyyət dövrünün ərəbləri məhərrəm günlərində müharibəni haram bilirdi. Ammma bu ümmət məhərrəm ayını aradan qaldırdılar və Peyğəmbərin (s) ehtiramını saxlamadılar. Bu ayda bizim qanımızı halal bilib bizim hörmətimizi sındırdılar. Bizim övladlarımızı və qadınlarımızı əsir etdilər. Bizim yurdumuza od vurub malımızı qarət etdilər. Allahın Rəsuluna (s) görə (Onun adına görə) bizə hörmət etmədilər. Həqiqətən aşura günü bizim ürəyimizi yandırdılar, (ağlamaqan) kipriklərimiz yara bağladı və gözümüzün yaşını axıtdılar. Bizim əzizimizi Kərbəla torpağında (hörmətsizlik edib) kiçik saydılar. Nəticə olaraq bizim üçün qiyamətədək möhnət və bəla (ondan) irs qaldı.

Ey Şəbibin oğlu! Əgər (bir şeyə) ağlamaq istəsən Əli oğlu Hüseynə (ə) ağla! Ona görə ki, qoyunun başını kəsirmiş kimi onu öldürdülər. O həzrətlə birikdə onun evindən on yeddi nəfərini də şəhədətə

çatdırdılar ki, onların yer üzündə heç bir bənzəri yox idi. Onların şəhadətində yeddi göy və yer ağladı. Aşura günü dörd min mələk o həzrətin qələbəsi üçün gəldikləri zaman onun şəhid olduğunu gördülər. Ona görə də qəm-qüssəli halda onun pak qəbri ətrafına (təyin olunub) məskunlaşdılar ki, həzrət Qaim (əc) zühur edəndə onun “Ya Saratəl-Hüseyn” şüarına səs verib köməyinə tələssinlər. Ey Şəbibin oğlu! Bizimlə cənnətin yüksək dərəcələrində olmaq istəsən bizim qəmimizdə qəmgin, bizim şadlığımızda şad ol! Sənə bizi sevməyi və məhəbbətimizi tapşırıram. Əgər bir şəxs bir daşı da sevsə Allah taala sabah qiyamət günü onu həmin daşla məşhur edəcək. (Üyuni-əxbarür-Rza (ə) c.2, səh. 268, -Biharül-ənvar, c. 44 səh. 285)

2) “Şebi - Əbi Talib” hadisəsi...

Peyğəmbərin ilahi elçiliyə (s) təyin olduğu beşinci gün. İslamın gün-gündən nüfuzunun çoxalması ilə bağlı Qüreyş kafirləri qərara aldılar ki, əlbir olub Peyğəmbəri-Əkrəmi (s) qətlə yetirsinlər. Əbu Talib (ə) bu bədxah qərardan xəbərdar olduqan sonra Peyğəmbərin (s) canının qorumaq üçün Bəni-haşimi qadın və uşaqları ilə birlikdə “Əbu Talib Şebi”- kimi tanınan dərəyə köçürdü. O böyük şəxsin qiymətli övladları gecə-günüz pərvanə kimi Peyğəmərin (s) vücudunun şəmi ətrafında dolanırdı. Onların böyük səyi Qureyş kafirlərinin peyğəmbəri (s) öldürmək cəhdini nəticəsiz qoydu. Ona görə də onlar Darün-nüdvədə bir yerə tolanıb məclis təşkil etdilər. Orada bir müqavilə yazıb müsəlmanlarla hər növ müamiləni, alış-verişi, nikah və ünsiyyəti qadağan etdilər. Onlar mümkün olan hər bir vasitə ilə peyğəmbərin (s) öldürülməsinə razı olub onu kafirlərə təhvil

vermələri üçün müsəlmanlara təzyiq göstərirdilər. Peyğəmbər (s) və müsəlmanların Şebi-Əbu Talibdə mühasirəsi çox ağır və dözülməz keçirdi. Şebi-Əbu Talibin ətrafında məskunlaşmış insanlar , gecələr Bəni-Haşim uşaqlarının aclıqdan ucalan səslərini eşidirdi. İki il tamam olub bir neçə ay keçdikdən sonra Allahın əmri ilə qarışqalar o müqaviləni təkcə orada yazılmış Allahın adı istisna olmaqla bütünlüklə yeyib aradan qaldırdılar. Həzrət Əbu Talib (ə) müşriklərə o möcüzəni xəbər verdi. Onlar çarəsiz qalıb müsəlmanaları mühasirədə saxlamaq və onları incitməkdən əl çəkdilər. Beləliklə müsəlmanlar öz evlərinə qayıtmağa nail oldular. (Muntəhayül-amal, 1-ci bölmə, 6-cı fəsil, səh.72)

3) Zəkatın ilk toplandığı gün...

Tarixin bu təqvimindən Peyğəmbəri-əkrəm (s) zəkat toplamaq üçün təyin etdiyi şəxsləri Mədinə ətrafına göndərdi. Bu iş, çətin və ağır anlarda ehtiyaclılarla birlik, onların dərdinə şərik olmaq və çarəsizlər üçün bir ümid payı idi.

4) “Zatür-rüqa” müharibəsi...

Hicri təqvimi ilə 4-cü il, Qüreyş kafirləri Mədinə ətrafında olan qəbilələri o şəhəri mühasirəyə almağa təhrik etdilər. İslamın əziz peyğəmbəri (s) 400 nəfərlə (digər bir nəqlə əsasən 700 nəfərlə) birlikdə, onlarla üzləşmək üçün Mədinədən xaric oldu. Üç gün onlarla müharibə etdi. Onlardan gələn təhlükənin qarşısı alındıqdan sonra həzrət (s) bu hadisəyəyə görə “xöfv” namazı qıldı. (Kəmal ibn Əsir. c. 2, səh 172).

5) Həzrət Hüseynin (ə) karvanının Bəni Məqatilin qəsrinə çatması...

Tarixi məlumatlara əsasən hicri təqvimi ilə 61-ci il, məhərrəmin ilk

günü imam Hüseynin (ə) karvanı Kərbəla səfəri zamanı yolda Bəni Məqatilin qəsrinə çatdı. Orada Übeydullah ibn Hürr Cofi ilə görüşüb onu köməyə dəvət etdi. O, imam Hüseynin (ə) dəvətini qəbul etmədi. Lakin bu üzdən həmişə xəcalət çəkib peşmanlıq odunda yanırdı. Nəhayət məhz bu halla da dünyadan köçdü. (Əl-irşad, c.2, səh. 81)

6) Mədinə xalqının Yəzid əleyhinə qiyamı...

Hicri təqvimi ilə 63-cü ildə Mədinə xalqı, Abdullah ibn Hənzələnin başçılığı ilə Yezid hakimiyyəti əleyhinə qiyama qalxıb Mədinədə sakin olan əməviləri şəhərdən xaric etdi. O qiyamın xəbəri Şam ordusuna çatdı. Şam qoşunu şəhərə hücum etdi və ağrılı "hərrə" faciəsi baş verdi.

7) Əmirəlmöminin (ə) övladı Məhəmməd ibn Hənəfiyyənin vəfatı...

Hicri təqvimi ilə 81-ci il məhərrəm ayının ilk günü Məhəmməd ibn Hənəfiyyə Əbdülməlik ibn Mərvannın hakimiyyətdə olduğu zaman 65 yaşında ikən vəvat etdi və Bəqi məzarlığında dəfn olundu. Bəzilriinin fikrincə o, ömrünün sonlarında Əbdüllah ibn Zübeyrin fitnəsindən xilas olmaq üçün Tayifə qaçıb və orada dünyasını dəyişib. Bəzi rəvayətlərə əsasən Allahın Rəsulu (s) Məhəmmədin doğumunu Əmirəlmöminə (ə) müjdə verib öz adını və ləqəbini ona əta etdi. Məhəmməd ibn Hənəfiyyə bilikli, şücaətli və güclü bir kişi idi. Nəql olunub ki, həzrət Əlinin (ə) hüzuruna müəyyən sayda zireh gətirdilər. Zirehlədən biri adi ölçüdən uzun idi. Məhəmməd zirehin aşağısını yığıb, atasının nişanladığı yerdən tutdu və dəmirdən olan o zirehin ətəyini (ipək) parça kimi qoparıb qısaltdı. (Muntəhayül-amal, 3-ci bölmə, 6-cı fəsil, səh.263)

Məhərrəm ayının 2-ci günü

Həzrət Hüseyn (ə) karvanının Kərbəlaya daxil olması…
Məşhur rəvayətə görə hicri təqvimi ilə 61-ci ildə həzrət Seyidüş-şühəda (ə) öz Əhli-beyt (ə) və əshabı ilə birkikdə Kərbəlaya çatdı. Rəvayətə əsasən həzrətin atı daha hərəkət etməyib dayandı. Həzrət Hüseyn (ə) “bu məntqənin adı nədir” deyə soruşdu. Dedilər: “Qaziriyyə”. Buyurdu: “Başqa adı yoxdur?” Dedilər:” Şatül-furat”. Həzrət (ə) başqa adı haqqında soruşdu: Dedilər: Kərbəla. O zaman həzrət ürəkdən bir ah çəkib ağladı və buyurdu: “Əllahummə əzuzu bikə min-əl-kərbi vəl-bəla, And olsun Allaha! Bura Kərbəla torpağıdır. Allaha and olsun, bu məkanda bizimlə olan kişiləri öldürəcəklər, arvad-uşaqlarımızı əsir aparacaqlar..Ey comərdlər, (atlardan yerə) enin ki, bizim qəbrlərimizin yeri burdadır.

Məhərrəm ayının 3-cü günü

1-Həzrət Məhəmmədin (s) insanları ilk dəfə beynəlxalq şəkildə islama dəvət və çağırışı günü
2-Həzrət Hüseynin (s) Kufə camaatına məktubu
3-Ömər ibn Sədin qoşununun Kərbəla diyarına daxil olması
4-Kərbəla torpağının bir qisminin imam Hüseyn (ə) tərəfindən alınması
1)Həzrət Məhəmmədin (s) islama dünyəvi çağırışı günü…
İslam, Mədinə və onun ətrafında bərqərar olduqdan sonra hicri təqvimi ilə 7-ci il, məhərrəm ayının 3-ü, bütün dünyanı islamın zühura gəlməsi xəbəri və dünyanı bu dinə dəvət etmək məqsədi ilə

müxtəlif ölkələrin şah və imperatorlarına məktub göndərməklə onları rəsmi olaraq bu dinə səsləməyə başladı. Tarixçilər o məktubların sayının 12 ilə 26 ədəd arasında olduğunu yazırlar. (“Lühuf”, səh. 97- “Feyzül-əllam”, səh. 142)

2-Həzrət Hüseynin (s) Kufə camaatına məktubu...

Məhərrəmin 2-ci günü, imam Hüseyn (ə) kufəlilərin yazdığı məktublara cavab yazdı. Məktubda onların dönə-dönə dəvət və yazılarını xatırladaraq beyətlərinə sadiq qalmalarınını və o həzrətə kömək etmələrini istədi. Həzrət, Qeys ibn Müsəhhər Seydaviyə göstəriş verdi ki, məktubu Kufəyə çatdırsın. Lakin məmurlar yolda onu həbs edib şəhadətə çatdırdılar. (“Əl-irşad”, c. 2, səh. 37- “Biharül-ənvar”, c.44 səh, 381)

3-Ömər ibn Sədin qoşunun Kərbəla diyarına daxil olması...

Hürr ibn Yəzid, imam Hüseyn (ə) və onun köməkçilərini Kərbəladə mühasirəyə alıb onların Kufəyə tərəf getməsinin qarşını adlıqdan sonra Übeydullah ibn Ziyad, Yezid qoşununun başçılığını Ömər ibn Sədə tapşırdı. Ömər ibn Səd, hicri təqvimi ilə 61- ci il, cümə günü, məhərrəm ayının 3 - də altı və ya doqquz min nəfər döyüş qüvvəsi ilə Kərbəlayə varid oldu. (“Əl-irşad”, c. 2, səh. 84 - Məaliul-Sibtəyn, c. 1, səh.301)

4-Kərbəla torpağının bir qisminin imam Hüseyn (ə) tərəfindən alınması...

Hicri təqvimi ilə 61- ci il, cümə günü, məhərrəm ayının 3 - də, imam Hüseyn (ə), hazırda pak məzarının yerləşdiyi torpaq sahəsini 60 min dirhəmə, Neynəva və Qazəriyə əhalisindən alıb onlarla şərtləşdi ki, onların qəbrini ziyarət etmək istəyən zəvvarlara yolu göstərib onları

üç gün öz yanlarında qonaq etsinlər. (Məcməül-bəhreyn, c.5, səh. 461, “Kərbəl” bölməsi).

Məhərrəm ayının 4-cü günü

Übeydullah ibn Ziyadın Kufə məscidində çıxışı...

Hicri təqvimi ilə 61- ci il, məhərrəm aynının 4-də Kufə hakimi Übeydullah ibn Ziyad, camaatın imam Hüseynə (ə) kömək etməsinin qarşısını almaq üçün Kufə məscidində kəskin bir çıxış etdi. İmam Hüseynə (ə) kömək edəcəkləri təqdirdə onları ölüm və edamla hədələdi. Həmçinin, imam Hüseynin (ə) qanının mübah olması haqqında qazinin imzalamış olduğu fətvanı oxuyaraq göstəriş verdi ki, Kufə şəhərinin bütün giriş-çıxış qapılarını bağlasınlar. (Əl-vəqaye vəl-həvades, c.2, səh. 123)

Məhərrəm ayının 6-cı günü

1-Həbib ibn Məzahirin Bəni Əsəddən kömək istəməsi...
2- Fərat çayının ilk mühasirəsi...

1)Həbib ibn Məzahirin Bəni Əsəddən kömək istəməsi...
Belə bir gündə Həbib ibn Məzahir, həzrət imam Hüseynin (ə) icəzəsi ilə Bəni-Əsəd qəbiləsindən kömək istəmək üçün onların arasına yollandı. Onlardan bir dəstəni kömək üçün Kərbəlaya yola saldı. Lakin Ömər ibn Sədin casuslarının fəaliyyəti nəticəsində Bəni-Əsəd qəbiləsi arasında qarşıdurma baş verdi. Qarşırdurma nəticəsində Bəni-Əsəd qəbiləsindən bir qrupu şəhid oldu, qalanları da çarəsiz qalıb qaçdılar. (Mədinədən Mədinəyə, səh.368)

2- Fərat çayının ilk mühasirəsi...

Bir rəvayətə əsasən Ömər ibn Səd və Şəbəs ibn Rəbi, məhərrəm ayının 6-ı üç min nəfər qoşunla birgə Fərat çayını mühasirəyə aldı. (Mədinədən Mədinəyə, səh.360).

Məhərrəm ayının 7-ci günü

Fərat suyunun İmam Hüseyn (ə) karvanınına qadağan olunması...

Übeydullah ibn Ziyad çox sayda qoşunu imam Hüseynlə (ə) döyüşmək üçün Kərbəlaya göndərdikdən sonra onlar vasitəsi ilə o həzrəti tamamilə öz ordusunun mühasirəsinə aldı. Ömər ibn Sədə məktub yazıb göstəriş verdi ki, su ilə Hüseynin (ə) arasını kəssin və onun əskərlərinin sudan istifadə etməsinə icazə verməsinlər. (Onun gümanına görə, vaxtilə Osman ibn Əffanın sudan istifadə etməsi qadağan olunmuşdu). Ona görə də ibn Səd, birbaşa Əmr ibn Həccac Zübeydini beş yüz nəfər süvari ilə suyu əhatəyə almaq vəzifəsini yerinə yetirməyə təyin etdi ki, imam Hüseyn (ə) və onun köməkçilərinə su götürməyə imkan verməsinlər. (Əl-irşad, c.2,səh. 86)

Məhərrəm ayının 8-ci günü

İmam Hüseynin (ə) Kərbəlada Ömər ibn Sədlə görüşməsi...

İmam Hüseyn (ə) heç bir halda döyüşün baş verməsinə razı deyildi. Müharibənin qarşısını almaq üçün çox çalışırdı. Bu üzdən hidayət əsnasında ya o həzrətin, beyət etmədən gəldiyi yerə qayıtması, ya da müsəlman kimi yaşamaq üçün (digər ölkəyə) islam ölkəsinin sərhədlərindən birinə getməsi barədə müqabil tərəflə razılığa gəlmək üçün Ömər ibn Sədlə görüşdü. Ömər ibn Səd, görüşün nəticəsini

(imamın(ə) təklifini) Übeydullah ibn Ziyada göndərdiyi bir məktubda yazdı. Übeydullah məktubun cavabında onu şiddətlə danlayıb göstəriş verdi ki, imam Hüseyn (ə) və onunla birgə olanlar Yezidə beyət etmədikləri təqdirdə onlarla sona kimi döyüşsün. (Səfinətül-bihar, c.2, səh. 270, “Ömər” bölməsi)

Məhərrəm ayının 9-cu günü

1- İmam Hüseynin (ə) xeymələrinin mühasirəyə alınması...
2-Şümrün əmannaməsinin həzrət Abbas tərəfindən (ə) rədd olunması...
3-İmam Hüseyn (ə) tərəfindən müharibənin təxirə salınması istəyi...
4- İmam Hüseynin (ə) (düşmənlərə) xitabı...
5- İmam Hüseyn (ə) xeymələrinin ətrafında xəndəklərin qazılması...
6- Şəhadət qüslü...

1)İmam Hüseynin (ə) xeymələrinin mühasirəyə alınması...

İmam Sadiq (ə) buyurub: Tasua günü, imam Hüseyn (ə) və onun ətrafında olanlar Kərbəlada mühasirəyə alındı, Şam qoşunu o həzrəti öldürmk üçün toplandı. Mərcanənin oğlu və Ömər İbn Səd onların ətrafında toplanan qoşunların sayının çoxluğundan sevinirdi. O həzrəti və onun dostlarını zəif sayıb onlara kömək gəlməyəcəyini və iraqlıların həzrətə kömək etməyəcəyinə əmin oldular.

2-Şümrün əmannaməsinin həzrət Abbas tərəfindən (ə) rədd olunması...

Tasua günü məlun Şümür, həzrət Əbafəzlül Əbbas (ə) və onun qardaşları üçün əmannamə (onların təhlükəsizlikdə olmasını göstərən rəsmi şəhadətnamə) gətirdi. Şümür, imam Hüseynin (ə)

xeymələrinə çatan zaman qışqırdı: “Bacımızın oğlanları hardadır?” O böyük şəxslər cavab vermədilər. İmam Hüseyn (ə) buyurdu: “Fasiq də olsa ona cavab verin!” Həzrət Əbbas (ə) onun cavabında buyurdu: “Nə deyirsən?” Şümür dedi: “Mən sizə Übeydullah tərəfindən əmannamə gətirmişəm. Hüseyn (ə) üçün özünüzü ölümə verməyin! ” Həzrət Əbbas (ə) uca səslə buyurdu: Allahın lənəti sənə və sənin amanına olsun! Peyğəmbər (s) qızının oğlu amanda olmadığı halda biz amanda olaq?!” (Ənsabül-əşraf, c.3, səh. 184)

3-İmam Hüseyn (ə) tərəfindən müharibənin təxirə salınması istəyi...

Məhərrəmin doqquzunda, əsr vaxtı Ömər ibn Səd öz qoşunlarına üz tutub bağırdı: “Ey Allah ordusu, atlarınızı hazır edin və sevinin ki, cənnətə gedirsiniz!” Beləliklə onun ordusu, imam Hüseynin (ə) xeymələrinə tərəf hərəkət etdi. İmam, öz xeyməsinin önündə oturub qılıncına söykənmişdi. Başını dizinin üstünə qoymuşdu. O zaman mübarək başını qaldırıb həzrət Əbülfəzlə (ə) buyurdu: “Ey Əbbas, canım sənə fəda olsun, atına süvari ol və onlardan soruş ki, nə üçün bura gəliblər?” Həzrət Əbbas (ə) iyirmi nəfər sahəbə ilə birlikdə düşmən qoşunu tərəfə gedib onların nə üçün gəldiklərini soruşdu. Ömər ibn Səd onun cavabında dedi: “Ya Yezidə beyət edin, ya da qanlı döyüşə hazır olun”. Həzrət, onlara dedi: “Gözləyin, sizin sözününü imam Hüseynə (ə) çatdırım.” Onların sözünü o həzrətə (ə) çatdırdı. Həzrət (ə) buyurdu: “Qardaşım Əbülfəzl! Düşmən ordusuna qayıt, namaz və Allaha razü niyazla məşğul olmaq üçün bu axşamı onlardan möhlət al. Allah bilir ki, mən namazı, Quran oxumağı və dua etməyi necə sevirəm.” Beləliklə müharibə bir gün təxirə düşdü.

4- İmam Hüseynin (ə) (düşmənlərə) xütbəsi...

İmam Səccad (ə) buyurub: Atam imam Hüseyn (ə), aşura gecəsi bütün səhabələrinin öz yanına çağırdı. Onun sözlərini eşitmək üçün mən də xəstə olduğum halda atamın yanına getdim . Atam, əshaba və öz köməkçilərinə buyurdu: “Ən gözəl sitayişlərlə Allah itaət edir, xoşluq və rahatsızlıqda Ona şükr edirəm. İlahi, Sənə şükr edirəm ki, bizi peyğəmbərliklə (s) əziz etdin, Quran təfsirini və dinin fiqh elmini bizə karamət buyurdun. Bizə eşidən qulaq, görən göz və ayıq ürək əta etdin. Bizi şükr edənlər sırasıda qərar ver! “ Əmma b`əd(və sonra)”. Həqiqətən mənim yoldaş və əshabımdan daha yaxşı və daha vəfalı biriləri olduğunu zənn etmirəm. Öz Əhli-beytimdən (ə) daha itaətcil və daha çox sileyi-rəhmə bağlı qalanını tanımıram. Mənə kömək etdiyinizə görə Allah sizə yaxşı mükafat versin. Bilirəm ki, sabah bunlarla döyüşəcəyik. Mən sizinlə olan beyətimi aradan qaldırıram. Yola düşüb getməniz və təhlükəli məkandan uzaqlaşmanız üçün gecənin qaranlığından örtük kimi istifadə etmənizə icazə verirəm. Sizlərdən hər biriniz Əhli-beytimizin (ə) bir nəfərinin əlini tutub kənd və şəhərlərə dağılın ki, Allah, (bəladan xilas etməklə) öz fərəcini sizin üçün qərar versin. Bu camaatın işi mənimlədir. Mənə əlləri çatsa, sizinlə işləri olmayacaq.” İmamın(ə) buyurduqlarından sonra Əhli-beyt (ə) və o həzrətin əshabı bir-birinin arxasınca qalxıb şəhadətədək öz fədakarlıq və imam Hüseynə (ə) vəfalı olacaqlarını ciddi şəkildə bildirdi. (Kəmali-ibn Əsir, c. 4. Səh. 57, Əl-irşad, c.1, səh. 91).

5- İmam Hüseyn (ə) xeymələrinin ətrafında xəndəklərin qazılması...

İmam Hüseyn (ə) köməkçilərinə fərman verdi ki, xeymələrin ətrafında xəndək qazsınlar. Onu ox və neylə doldursunlar ki, düşmən hücum

edən zaman onları yandırmağı bacara bilsinlər, düşmənlə xeymələr arasında yolu kəsib təkcə imamın (ə) köməkçilərinin yerləşdiyi hissəni açıq qoysunlar və döyüş orada baş tutsun. (İmamül-Hüseyn (ə) və əshabuh,səh.257)

6- Şəhadət qüslü...

İmam Hüseyn (ə) həzrət Əli Əkbəri otuz nəfər süvari və iyirmi nəfər piyada qoşunla fəratdan su gətirmək üçün göndərdi. Onlar öz tuluqlarını su ilə dolu halda xeymələrə gətirdi. İmam(ə) öz əshabına üz tutub buyurdu: “Qalxın və su için. Bu, sizin sonuncu azuqənizdir. Dəstəmaz alın, qüsl edin və paltarlarınızı yuyun ki, sizin kəfəniniz olsun”. Nəql olunub ki, Əbdürrəhman və Bürəyr ibn Xuzəyr təmizlənmək - hamam və nəzafət üçün nəzərdə tutulan çadırın qapısında növbədə durmuşdu. Bürəyr Əbdürrəhmanla zarafat edirdi. Əbdürrəhman ona dedi: “İndi zarafat vaxtı deyil”. Bürəyr dedi: Mənim qohumlarım bilir ki, mən nə cavanlıqda, nə də yaşlılıqa (qocalıqda) zarafat əhli olmamşam. Mənə səadət və cənnət vəd olunuduğu üçün sevindiyimdən özümə sığmıram, özümlə cənnət arasında məsafənin təkcə şəhadət olduğunu bilirəm. (“Əmaleyi-Şeyx Səduq”, səh. 221, 30-cu məclis).

Məhərrəm ayının 10-cu günü

1-İmam Hüseynin (ə) aşurası...

□ İmam Hüseynin (ə) münacatı...

Şəhidlər ağası, sübh vaxtı sübh namazını öz vəfalı əshabı ilə birgə qıldı.Sonra mübarək əllərini göyə tərəf qaldırıb belə münacat etdi: “Ey Allah! Çətiliklərdə həmişə mənim sığınacağım və ümüdimsən.

Mənə nazil olan hər bəlada pənah və köməkçimsən. Ey Allah! Ürəyi sındıran, çarəsiz, dostu rahatsız edən, düşmənin tənəsinə səbəb olan ağrılı yaralardan sənə şikayət edirəm. Sənə ümid etmək, insanı başqasına ürək bağlamaqdan ehtiyacız edir. Bağlı qapıları aç, ümid rövzənələrin göstər! Bütün nemətlər və yaxşılıqlar Sənindir! Sən arzuların yeganə (son) məqsədisən (Əl-irşad, c. 2, səh. 96.)

□ İmam Hüseynin (ə) öz qoşununu nizama salması...

Şəhidlər ağası Həzrət Hüseyn (ə), sübh namazından sonra xeymələrin önünə gedib 32 süvari, 40 piyadadan ibarət qoşununu yerbə-yer etdi. Onları üç dəstəyə böldü. Zühəyr bin Qeyni sağ tərəfdə, Həbib inb Məzahiri sol tərəfdə duran dəstənin başçısı təyin etdi. Üçüncü dəstəni onların arasında qurmasını qərəra alıb özü də orta dəstənin sırasında durdu. Bayrağı, qardaşı həzrət Əbəlfəzl Əbbasa (ə) tapşırdı. (Əl-irşad, c. 2, səh. 95.)

□ İmam Hüseynin (ə) xütbəsi...

İmam Hüseyn (ə) həddindən artıq və çox çalışırdı ki, döyüşün və qan tökülməsinin qarşını ala bilsin. Daş qəlbləri yumşalsın və yatmış vicdanları oyansın deyə dəfələrlə düşmən ordusuna nəsihət edir və öyüd verirdi:

“Ey camaat! Mənim sözümü eşidin və müharibəyə tələsməyin ki, qoy mənə vacib olanı və üzərimdə olan haqqınıza görə sizə moizə edim və məsələnin həqiqətni sizə deyim. İnsafa gəlsəniz səadətə çatacaqsız. Əks təqdirdə ədalət və insaf yolundan çıxmış olacaqsız. O zaman qərara gəldiyinizi yerinə yetirin və bizimlə döyüşün. Böyük Allah mənim ixitiyar sahibimdir. O Allah ki, Quranı nazil edib və xeyir əməl sahiblərinin ixtiyarı Onun əlindədir.

Mənim əsil-nəsəbimi xatırlayın, görün ki, mən kiməm?! Özünüzə gəlin və özünüzü qınayın! Baxın, məni öldürmək və hörmətimi sındırmaq rəvadırmı?! Mən, Peyğəmbərinizin (s) qızının oğlu, onun canişini və əmisi oğlunun övladı deyiləmmi? O kəs ki, hamıdan öncə iman gətirib, Allah Rəsulunun (s) Onun tərəfindən gətirdiyini təsdiqlədi?! Şəhidlər ağası Həmzə mənim əmim deyilmi?! Cənnətə daxil olması üçün Allahın iki qanad verdiyi Cəfər Təyyar mənim əmim deyil?! Allahın Rəsulunun (s) mənim və qardaşım haqqında "bu iki nəfər, cənnət cavanlarının ağasıdır" deyə buyurduğunu bilmirsinizmi?!

Sözümü qəbul etmir və sözümün düzlüyünə şübhə edirsinizsə, and olsun Allaha ki, Onun yalan danışanları düşmən saymasını bildiyim vaxtdan indiyə kimi heç zaman yalan danışmamışam. Sizin aranızda düzlükdə məşhur olanlar vardır ki, mənim sözlərimi təsdiqləyir. Cabir inb Əbdullah Ənsari, Əbu Səid Xidri, Səhl ibn Səd Ənsari, Səhl ibn Səd Saidi, Zeyd ibn Ərqəm və Ənəs ibn Malikdən soruşun ki, Allahın Rəsulundan (s) eşitdiklərini danışsınlar və mənim sözümün düzlüyü sizin üçün sabit olsun. Bu şahidlik mənim qanımı tökmənizin qarşısını almazmı?! (Biharül-ənvar, c.45, səh. 6)

□ Döyüşün başalanması...

Ömər ibn Səd, imam Hüseynin (ə) qoşununa yaxınlaşdı. Oxu kamana qoyub o həzrətin qoşununa tərəf atdı və dedi: "Hamınız Übeydullah ibn Ziyadın yanında şahidlik edərsiniz ki, ilk olaraq mən, onlara tərəf ox atdım."

Beləliklə rəsmi şəkildə döyüş başladı. İmamın (ə) əshabından hər biri qeyri-bərabər döyüşdə düşmən qüvvəsindən eyni anda 10-larla

şəxslə və ya təkbətək döyüşə qoşuldu. İmamın(ə) dostlarının halında heç bir qorxu və şübhə görünmürdü. Onların belə bir etiqada sahib halda döyüşkənlik ruhiyyəsinə malik olması düşmənin belini sındırırdı. Öncədən belə düşünürüdülər ki, imam Hüseynin (ə) qoşunu elə döyüşün əvvəlində məğlub olacaq. Lakin döyüş başladıqdan sonra anladılar ki, iman və əqidə ilə möhkəmlənmiş bir qala ilə üzləşiblər və onları məğlub etmək asan iş deyil.

İmam Hüseynin (ə) köməkçiləri aşura gününün sübhündən əsrədək döyüşə davam etdilər. Axırıncı damla qanlarınadək imam Hüseynin (ə) müdafiəsi üçün canfəşanlıq edirdilər. Onlardan Həbib ibn Məzahir, Müslim ibn Ovsəcə, Hürr ibn Yəzid Riyahi, Zöhəyr ibn Qeyn, Hafe ibn Həlal, Bürəyr ibn Xəzir, Əbbas ibn Əbi Şəbibi və 10-larla qəhrəmanlıq və mərdlik nümunəsini saymaq olar.

□ Aşura gününün zöhr namazı...

Zöhr namazının vaxtı gəlib çatdıqda Əbu Səmamə Soydavi imam Hüseynə (ə) ərz etdi: “ Ey Əba Əbdillah, qurbanın olum, bu dəstə bizə yaxınlaşıb. And olsun Allaha ki, mən sizdən tez şəhid olmalıyam. İstəyirəm ki, sizinlə namaz qıldıqdan sonra Alllahla görüşüm!”

O həzrət başanı səmaya qaldırıb, buyurdu: Namazı xatırlatdın, Allah səni namaz qılanlardan qərar versin.” O zaman, Zühəyr ibn Qeyn və Səid ibn Əbdullaha göstəriş verdi ki, onların namaz qılması üçün o həzrətin önündə dursunlar. İmam (ə), köməkçilərinin yarıısı ilə birlikdə “xövf” namazı qıldı. (“Yənabiül-məvəddə”, c.3, səh. 70, - “Biharül-ənvar”, c.45, səh. 21).

□ Bəni Haşimin şəhadəti...

İmam Hüseynin (ə) köməkçilərinin bəzi hissəsi bir-bir, misilsiz və qəhrəmanasına mübarizə edib şəhadət dərəcəsinə yetişdikdən sonra digər hissədəki səhabələrdə imamət məqamının müdafiəsi uğrunda fədakarlıq göstərməyə başladılar.

□ *Kərbəla səhrasının səqqası - həzrət Əbülfəzl Əbbas (ə)...*

Həzrət Əbbas (ə) Ümmül-Bəninin (ə.s) böyük övladı, Əmirəlmöminin (ə) dördüncü oğludur. Künyəsi Əbulqasim, ləqəbi Səqqa, imam Hüseyn qoşununun (ə) ələmdarıdır. Gözəl görünüşlü olduğu üçün ona "Qəməri-Bəni-Haşimin" (Bəni-Haşimin Ayı) deyirdilər. Qədd-qaməti o qədər uca idi ki , ata mindiyi zaman mübarək ayağı yerə çatırdı. (Məqatilul talibin, səh. 90- Biharül-ənvar, c. 45, səh. 39). O həzrətin bərəkəti ömrü 34 il çəkdi. Məsumlardan beş şəxsin müasiri oldu. İmam Sadiq (ə) buyurub: Əmim Əbbasın (ə) nüfuzlu bəsirəti və möhkəm imanı var idi. İmam Hüseynin (ə) kənarında gözəl şəkildə mübarizə edib şəhadətə çatdı. (Məqatilul-talibin, səh. 90- Biharül-ənvar, c. 45, səh. 39).

Rəvayətdə vardır ki, həzrət Əbbas(ə) imam Hüseynin (ə) məzlumluğunu görüb özünü onun hüzununa çatdırıb ərz etdi: "Meydana getmək üçün mənə icazə verirsənmi?!"

İmam(ə) bu sözü eşitdikdən sonra bərk ağladı və buyurdu: "Ey qardaş, sən mənim bayraqdarımsan!"

Ərz etdi: Ürəyim sıxılır və dünyadan yorulmuşam. İstiyirəm ki, bu münafiqlərlə döyüşəm." İmam(ə) buyurdu: "Bir haldaki meydana getməyi qərara almısan, öncə bu kiçiklər(uşaqlar) üçün bir az su gətir." O zaman Bəni-Haşimin Qəməri atına mindi, tuluq və nizəsini götürüb Fərata tərəf yola düşdü. Ömər ibn Sədin dörd min oxçusu,

Fərat çayının şəttinin ətrafını sarıb qoruyurdu. Ona tərəf ox atmağa başladırlar. O şücaət nümunəsi, şir kimi düşmən ordusunun sıralarını yarıb düşməndən yetmiş nəfəri öldürdü. Düşmən ordusu həzrət Əbbasın (ə) şücaəti qarşısında çarəsiz qalıb nə edəcəyini bilmirdi. Ətrafa dağılışmağa başladılar. O, fərata çatdığı vaxt bir qədər su içmək istədi. Sudan bir ovuc götürdü. Amma imam (ə) və onun əhli-beytini xatırlayıb suyu çaya tökdü. Tuluğu doldurub suzuz dodaqlarla Fəratdan uzaqlaşdı.

Ömər ibn Sədin ordusu hər tərəfdən yolu bağlayıb onu mühasirəyə aldılar. Heç zaman heç nədən çəkinməyən Əbbas (ə) qorxmazlıqda misilsiz idi. Sürətlə onlara hücum etdi. Öz yoluna davam edirdi ki, qəfildən Nofəl Əzrəq onun sol qolunu kəsib ayırdı. Tuluğu sağ tərəfə ötürdü. Yenə də o məlun ona tərəf hücum etdi və sağ qolunu da kəsib ayırdı. (başqa bir rəvayət görə Həkim ibn Tufeyl məlun, bir ağacın arxasında gizlənib Bəni-Haşim Qəmərinin (ə) qolunu kəsdi. Əbbas tuluqu sinəsinə yapışdırdı. Onun möhmək dişinə sıxdı. Birdən bir ox tuluğa dəydi və onun suyu töküldü. Sonra onun sinəsinə və gözünə ox vurdular. Digər rəvayətə əsasən isə bir məlun o həzrətin mübarək sinəsinə nizə vurdu və o atın üstündən yerə düşdü. O zaman Əbbas(ə) qardaşını səslədi. İmam(ə) yubanmadan ata minib özünü həzrət Əbbasa yetirdi. Onun yaralardan parça-parça olmuş bədəninin yanında şiddələ ağladı və buyurdu: “İndi belim sındı. Çarəsiz qaldım. O zaman həzrət Əbbas (ə) canını Yaradana təslim etdi, Başdan-başa eşq, mərifət və fədakarlıqla dolu olan ruhu Canana tərəf qanad çaldı. (Məqtəlül-Hüseyn (ə), məqrəm: səh. 282-Təzəllümi-Zəhra (ə) səh. 120)

□ *Sonuncu vida...*

İmam Hüseynin (ə) yaxınları və köməkçiləri şəhid olandan sonra, o, tək-tənha Ömər ibn Sədin qoşununun önündə “Həl mən nasirun yənsuruni” (mənə bir kömək edən yoxdur?) deyə fəryad etdi ki, bəlkə ürəyi oyaq bir müsəlman küfr ordusuna qarşı onun köməyinə gəlsin. O qəlbi kor olmuşların heç biri cavab vermədi. İmam (ə) öz əhli-beyti (ə) ilə sonuncu dəfə vidalaşmaq üçün xeymələrə gəldi. Onlar xeymələrdən çölə çıxıb həzrətin ətrafına yığışdılar. İmam(ə) onları səbrə çağırıb buyurdu: “Çətinliyə hazır olun və bilin ki, Allah taala sizi qoruyur. Tezliklə sizi düşmənlərin şərrindən qurtaracaq. Sizin axrınız xeyirə, düşmənlərinizi isə müxtəlif bəlalara salacaq.” (Nəfsul-məhmum, səh. 355).

Qadın və qızların şivəni, ağlamaq səsləri ucalmışdı və imam(ə) kimə təsəlli verirdisə həmin şəxs bir qədər sakit olurdu.

□ *Şəhidlər rəhbəri həzrət Əba Əbdillahil Hüseynin (ə) şəhadəti...*

Imam Hüseyn (ə) bütün Əhli-beyt və əshabını itirdiyi halda Ömər ibn Sədin qoşunu qarşısında tək-tənha qalmışdı. Onlara sonuncu dəfə nəsihət etdikdən sonra özünü şəhadətə hazır etdi. Öncə döyüşmək üçün onlardan mübariz tələb etdi. Allah şirinin övladı qarşısına kim çıxırdısa həlak olub torpağa düşürdü. Beləliklə düşmənin çox sayda güclü pəhləvan döyüşçüləri məhv oldu. Ondan sonra meydana gəlmək üçün heç bir kəsdə cürət qalmamışdı. Bəziləri yazır: İmam Hüseyn (ə) düşmən ordusudan min doqquz yüz əlli nəfəri qətlə yetirdi. Nəhayət Ömər ibn Səd fəryad çəkdi: “Vay olsun sizə! Bilirsiniz ki, kimlə döyüşürsünüz? (Haza ibnu qəttalil-ərəb). Bu, ərəbləri öldürən Əli ibn Əbu Talibin övladıdır.” Sonra göstəriş verdi

ki, imamı (ə) hər tərəfdən mühasirəyə alıb ona hücum etsinlər. (“Müntəhayül-əmal”, beşinci bölüm, üçüncü məsələ, səh. 541). İmam(ə) qəzəbli bir şir kimi onlara hücum edir və hər hücumda onlardan bir çoxunu öldürürdü. İsti hava və çox susuz halda mübarizə etmək həzrətin taqətini azaltmışdı. İstirahət etmək üçün bir an dayanmışdı ki, qəfildən bir daş mübarək alnına dəydi. İlahi bərəkət və nur dolu üzündən qanı təmizləmək üçün öz paltarını götürdü. O zaman bir üç başlı dəmir və zəhərli ox həzrətin mübarək sinəsinə batdı. İmam(ə) oxu çıxartdı. Sinəsindən axan qanın altına əlini tutdu, qanı səmaya səpdi və o qandan bir damcı da yerə düşmədi. Yenə də mübarək əlini o qanla doldurub öz üzünə sürtdü və buyurdu: “Cəddim Rəsulullahla (s) belə görüşüm və deyim ki, məni filan və filan şəxs öldürdü.” (“Məqtəli-xarəzmi”, c. 2, səh. 39- “Biharül-ənvar”, c.45. səh. 53). Sonra Ömər ibn Sədin ordusu hər tərəfdən imama (ə) ox və nizələr atdılar. Deyirlər ki, həzrətə o qədər ox dəydi ki, onun zirehi oxlarla doldu. Bütün o oxlar, həzrətə öndən dəymişdi. (Mənaqibi-Ali- Əbi Talib (ə), c. 4, səh. 111). Saleh ibn Vəhəb Mozni, imamın (ə) mübarək böyrünə nizə vurdu. Onun təsiridən həzrət atdan yerə yıxıldı, üzünün sağ tərəfi üstə yerə düşdü və buyurdu: “Bismillahi və billahi və əla milləti rəsulillah” . Bəziləri yazır: İmamın(ə) pak bədəni, (nisbətən çox) bir müddət Kərbəla torpağında idi. O həzrət öz qanına boyanıb , yerdə (çapalayırdı) dolanırdı. Lakin heç kəsin ona yaxınlaşmağa cürəti yox idi.(Kamil ibn Əsir, c.4, səh. 78).

İmam (ə), son anlarında Rəbbinə belə münacat edirdi: (“Səbrən əla qəzaik, ya Rəbbi, la ilahə illa sivak, ya

Ğiyasəl-müstəğisin!” Məqtəlül-Hüseyn (ə)) Bu anda, Şümür öz qoşununa fəryad edib dedi ki, “nə gözləyirsiniz, nə üçün Hüseynin işini bitirmirsiniz?!”

□ *Xeymələrin qarət olunması...*

Ömər ibn Sədin qoşunu, imam Hüseynin (ə) şəhadətindən sonra, o həzrətin xeymələrinə hücum etdilər. Onlar bu işdə bir-birləri ilə yarışır və xeymələrdə olan hər bir şeyi yağmalayırdılar. Hətta Əhli-beytin (ə) məqamına ehtiram etməyib onların zinət əşyasını, paltar və çarıdırını da zorla alırdılar. Sonra xeymələrə od vurdular. O dəhşət zamanı uşaqlar və qadınlar xeymələrdən çölə çıxdılar. Canlarını qorumaq üçün qızmar və tikanla dolu səhrada dörd tərəfə qaçırmağa başladılar...(“Lühuf”, səh. 180, -“Biharül-ənvar”, c.45, səh. 57).

Aşura - ərəb mənşəli sözdür.

Aşura...

Aşura - ərəb mənşəli sözdür. “10” mənasını ifadə edir. Məhərrəm ayının onuncu günü üçün işlənməsi isə hamıya məlum olan tarixi hadisə ilə əlaqəli olduğuna görədir. Həmin gün İmam Hüseyn (ə) və onun 72 nəfər silahdaşı Yezidin qoşunları tərəfindən faciəli şəkildə qətlə yetirildi. Şəhidlərin başları kəsildi,onların heç birinə rəhm olunmadı və bədənləri atların ayaqları altında tanınmaz hala salındı.

Ərbəin...

Ərbəin - ərəb mənşəli sözdür. “40” mənasını ifadə edir.İmam

Hüseynin (ə) və Kərbəla şəhidlərinin şəhadətə çatmaqlarının qırxıncı günü. Həmin gün məscidlərdə əzadarlıq mərasimləri keçirilir, mərsiyyələr və nohələr oxunur.

Tasua...

Tasua - ərəb mənşəli sözdür. “9”-cu mənasını ifadə edir. Aşura günündən bir gün əvvəl nəzərdə tutulur. Kərbəla iştirakçılarının mühasirədə qaldıqları doqquzuncu gün. Tarixi məlumatlara görə, İmam Hüseyn(ə) həmin gün ibadət etmək məqsədilə Yezidin qoşunundan möhlət alır.

Mərsiyə...

Mərsiyə - ərəb mənşəli sözdür. Vəfat edən şəxsin yaxınlarının onu yad edib ağlamaqlarına və kədərli şeirlər söyləməsinə deyilir. Mərsiyələrdə, adətən həmin şəxsin yaxşı xüsusiyyətlərindən söz açılır. Mərsiyənin tarixi İslamdan əvvələ qayıtsa da, Kərbəla hadisəsindən sonra yalnız İmam Hüseyn (ə) və onun tərəfdarlarının müsibətləri haqqında oxunan şeirlərə “mərsiyyə” deyildi.

Əzadarlıq...

Əzadarlıq - ərəb mənşəli sözdür.
Kərbəla şəhidlərinin il dönümünə həsr olunan məclislərə verilən addır. İlk əzadarlıq mərasimləri hicrətin 61-ci ili İmam Səccad (ə) və Hz. Zeynəb (ə) tərəfindən Mədinə şəhərində keçirilir.

Nohə...

Nohə - ərəb mənşəli sözdür. Matəm nəğmələri deməkdir. Dünyasını dəyişən şəxsin xatirəsinə həsr olunan qəmli nəğmələr “nohə” adlanır. Məsum İmamların müsibətlərinə həsr olunan nohələr istisna olmaqla, digər insanlar üçün nohələrin oxunulması bəyənilməyən əməllərdəndir.

Matəm...

Matəm - ərəb mənşəli sözdür. Qəm-qüssə, kədər, əzadarlıq, müsibət deməkdir. Matəm mərasimləri insan dünyasını dəyişdiyi zaman təşkil olunur. Dünyasını dəyişən şəxsin ruhuna dualar və Quran oxumaq, ehsan vermək və dini moizələr (söhbətlər) etmək bu mərasimlərə xas olan əməllərdəndir.

Kərbəla ələmdarı

Bağışlayan və Mehriban Allahın adı ilə. "Qəməri Bəni-Haşim" ləqəbi ilə tanınmış Həzrət Əbülfəzl ibn Əli (ə) hicrətin 26-cı ili, şəban ayının 4-də dünyaya gəlmişdir. İslam aləmində Həzrət Əbülfəzl (ə) Qəməri-Bəni-Haşim (yəni Haşim Nəslinin Ayı) ləqəbi ilə tanınmışdır. Atası, Allahın hüccəti Həzrət Əli (ə), anası isə öz şücaətləri ilə ad qazanmış "Kilab" qəbiləsindən olan Ümmül-bənidir. Xanım Fatimə (ə) dünyasını dəyişdikdən sonra Həzrət Əli (ə) qardaşı Əqilə demişdi ki, onun üçün qeyrətli və şücaətli övlad dünyaya gətirə biləcək bir həyat yoldaşı seçsin və buna görə bütün tayfalarla maraqlansın. Əqil bütün tayfaların əsl-nəcabətini yaxşı bildiyi üçün məhz Ümmül-bənini həzrət Əliyə (ə) tövsiyə etdi.

Həzrət Əlidən (ə) tərbiyə alan Həzrət Əbülfəzl bütün insani dəyərləri və əxlaqi xüsusiyyətləri özündə təcəssüm etdirən bir şəxs olmuşdur. Öz şücaəti, qəhrəmanlığı ilə tarixə silinməz və əvəz olunmaz izlər salmışdır. İmam Cəfər Sadiq (ə) belə buyurur: "Bizim əmimiz Həzrət Əbülfəzlin (ə) dolğun təfəkkürü, geniş baxışı və güclü imanı var idi. O (ə), İmam Hüseynlə (ə) birgə zalım Yezidə qarşı sonadək mübarizə apardı. O Həzrətin (ə) yolunda canını fəda edərək şəhid oldu."

İmam Səccad (ə) o həzrətin (ə) barəsində belə buyurur: "Həzrət Əbbas (ə) təlim görməmiş alimdir. Çünki o, İlahi elmin mənbəyi, Həzrət Peyğəmbərin (s) varisi və vəlisi Həzrət Əlinin (ə), həmçinin behişt cavanlarının ağaları olan Həsən (ə) və Hüseynin (ə) elmindən istifadə etmişdir." O Həzrətin (ə) şücaəti və qəhrəmanlığı barəsində tarixçi Xarəzmi belə nəql edir: "Siffeyn müharibəsində Əbbasın göstərdiyi misilsiz şücaəti və yüksək qılınc oynatmaq qabiliyyəti hamını valeh etmişdi.
Müaviyə suyu Həzrət Əlinin (ə) ordusunun üzünə bağladıqdan sonra Əbülfəzl (ə) meydana çıxaraq qarşı tərəfdən döyüşçü istədi. Bu zaman Müaviyə Əbu Şəsanı çağırıb dedi ki, sən Şamın ən cəngavərisən, başqalarına ibrət olsun deyə bunu öldür. Lakin o, özü getməyib oğlunu göndərdi. Əbülfəzl (ə) ardıcıl olaraq onun yeddi oğlunun hər birini öldürdü. Bunu görən əbu Şəsa qəzəbli şəkildə meydana daxil oldu. Həzrət Əbülfəzl (ə) onu da məğlub edərək cəsədini yerə sərdi. " Xarəzminin nəql etdiyinə əsasən bundan sonra Müaviyənin qoşunundakılardan onunla vuruşmağa heç kim cəsarət etmədi. Həzrət Əbülfəzin (ə) məqam və fəzilətini bilmək üçün sadəcə

bir məsələni qeyd etmək kifayətdir. Belə ki, məsum şəxsə yalnız məsum olan bir şəxs qüsl verib namaz qıla bilər. Həzrət Muhəmmədə (s) Həzrət Əli (ə) qüsl verərkən ona Fəzl ibn Əbbas və ibn Əbdülmüttəlib su tökərək kömək edirdilər. Lakin onlar parça ilə gözlərini bağlayaraq bunu etmişlər ki, Peyğəmbərin (s) mübarək bədənini görməsinlər. Çünki qeyri-məsum şəxslər məsum şəxsin tam örtünməmiş bədəninə baxdıqları üçün kor olacaqları ehtimalı vardır. Amma Imam Hüseyn (ə) İmam Həsənə (ə) qüsl verərkən Həzrət Əbülfəzl (ə) gözü açıq iştirak etmişdir. Həzrət Əbülfəzl (ə) ömrünü qardaşı İmam Hüseynin (ə) yanında keçirmiş və daim ona sadiq qalaraq atasına verdiyi vədə əməl etmişdir.

Kərbəla şəhidləri arasında öz yüksək məqamı ilə ad qazanan Həzrət Əbülfəzl (ə) ömrünün sonuna qədər zalımlara qarşı mübarizədən çəkinmədiyi halda Allahın hüccətini qəhrəmancasına müdafiə edərkən və Əhli Beyt (ə) xanədanına su gətirərkən Fərat sahilində şəhadətə yetişdi. Hələ Tasua gecəsi qarşı tərəfdən gələn "amannamə"yə yox cavabı verən Həzrət Əbbas (ə) bir daha öz vəfalılığını göstərmişdi. İmam Səccad (ə) Həzrət Əbülfəzlin məqamının şəhid məqamından üstün olduğu barədə belə buyurur: "Allah Təala əmim Əbbasa (ə) rəhmət eləsin. O, həqiqətən canından keçib özünü qardaşına fəda etdi, Allah-Təala ona kəsilmiş qollarının əvəzində cənnətə uçaraq daxil olsun deyə əmisi Cəfər Təyyar kimi iki qanad vermişdir. Onun Allah Təala yanında elə bir məqamı var ki, Qiyamət günü bütün şəhidlər ona qibtə edər və onun məqamına təmənna bəsləyərlər." İmam Sadiq (ə) Həzrət Əbülfəzl (ə) haqqında

belə buyurur: "İlahi haramları sənin haqqında halal bilən və səni öldürməklə islamın hörmətini tapdalayanlara Allah lənət eləsin."

Əbülfəzlin (ə) Kərbəladakı qəhrəmanlığı barəsində Təbəri belə yazır: "Məhərrəm ayının 7-də İmam Hüseyn (ə) ordusunu mühasirəyə alaraq suyu onların üzünə bağladılar. Əbülfəzl (ə) su gətirmək üçün İmam Hüseyndən (ə) icazə alaraq 30 atlı, 20 piyada və 20 su tuluğu ilə Fərat çayına tərəf yollandı. Çaya yetişdikdə suyun qarşısını kəsən düşmən qoşunu ilə rastlaşdılar. Bir dəstə onlarla vuruşduğu halda digər dəstə tuluqları su ilə doldurub oranı tərk etdilər. Döyüşçülər arasında öz şücaəti ilə Həzrət Əbbas (ə) düşmənin gözünü elə qorxutmuşdu ki, heç kim ona yaxınlaşıb döyüşmək istəmirdi."

Aşura gecəsi İmam Hüseyn (ə) öz xeyməgahında ibadətlə məşğul olarkən Həzrət Əbülfəzl (ə) onu mühafizə etmiş və daim Əhli Beytin (ə) xidmətində durmuşdur. Həmin gecə Həzrət Əbülfəzl (ə) qardaşlarına xitab edərək buyurdu: "Bu gün elə bir gündür ki, gərək behişti satın alaq və canımızı İmam Hüseynə (ə) fəda edək. Bunu onun qardaşları olduğumuz üçün etmirik, yalnız və yalnız ona görə edirik ki, İmam Hüseyn (ə) Allahın yer üzündəki hüccətidir." Əbbasın(ə) sözlərini eşidən İmam Hüseyn (ə) buyurdu: "Ey qardaş, aləmlərin Pərvərdigarı sənə əcr versin.

Aşura günü haqqın bayraqdarı olan Əbülfəzl (ə) İmamın göstərişi ilə meydana gedən son şəxs oldu. Bütün səhabələr meydana getmək üçün İmam Hüseyndən (ə) icazə alaraq növbə ilə meydana getdiyi

halda Həzrət Əbülfəzl (ə) İmam Hüseynin (ə) əmrini gözləyirdi. Sonda o, İmam Hüseyndən (ə) izn alaraq su gətirmək üçün Fərata yollandı. Zalımlarla üzləşən Həzrət Əbülfəzl (ə) ilk növbədə onları haqqa tərəf səslədi, lakin onlar buna etina etməyərək öz zülmlərindən əl çəkmədilər. Həzrət Əbülfəzl (ə) tuluğu su ilə doldurub qayıdarkən Onun (ə) sağ əlini kəsdilər. Bir müddət sol əli ilə vuruşduqdan sonra Həzrətin (ə) sol əlini də kəsdilər. Ancaq Kərbəla ələmdarı bayrağın yerə düşməsinə imkan vermədi və onu sinəsinə sıxaraq saxladı. Hər tərəfdən o Həzrəti (ə) ox və nizə ilə yaraladılar. Həzrət (ə) fəryad edərək buyurdu: "Məndən sənə salam olsun ey əba Əbdullah." Bunu eşidən İmam Hüseyn (ə) onun yanına gəldi və Həzrətin (ə) mübarək başını qucaqlayaraq buyurdu: "İndi belim sındı, çarəm azaldı və düşmənin dili açıldı."

Həzrət Əbülfəzl (ə) Kərbəlada İmam Hüseynin (ə) hərəminin yaxınlığında dəfn olunub.

Əhli-beyt aşiqlərinin hər biri üçün gün kimi aydın həqiqətlərdən biri də budur ki, o Həzrəti vasitə bilib sidq ürəklə Allah Təaladan istənilən hacətlər tezliklə qəbul olur. Elə bu səbəbə görə o Həzrəti (ə) "Hacətlər qapısı" da adlandırırlar.

Hazırladı: Vüsal Əli

Ağlamağın hikməti

Çox zaman həyatın çətin anları bizə güc gəldikdə və onları həll etmək üçün heç bir qüvvəyə malik olmadığımızı hiss etdiyimiz zaman göz yaşlarına pənah aparırıq. Hər kəsə məlum olan bu təbii hiss bütün insanlarda vardır: bəziləri var qüvvəsi ilə özünü boğaraq göz yaşlarını saxlayır, digərləri isə bu təbii nemətdən yararlanaraq hislərini göz yaşları ilə ifadə edirlər.Göz yaşlarının səbəbləri də müxtəlifdir: istəkli bir insanın itirilməsi, maddi ziyana uğramaq, mənəvi sıxıntılar yaşamaq və bu kimi digər səbəblər.Səbəb hər nə olursa olsun, belə hallarda insan batini müvazinətini itirməklə ixtiyarsız olaraq ağlayır və göz yaşları axıdır...Əlbəttə, bu hal insan bədəninə tibbi nöqteyi nəzərdən çox faydalıdır, lakin bu məqalədə ağlamaq və göz yaşlarının insana bəxş etdiyi tibbi faydalar haqqında danışmayacağıq.

Bu məqalənin səbəbi Şəhidlərin ağası İmam Hüseyn (ə)-a ağlamaq və göz yaşlarını axıtmağın şəriət nöqteyi nəzərindən icazəli olması haqqındadır.İslam dininə görə ağlamağın bir neçə növü vardır:

Allah qorxusundan ağlamaq:

Belə ki bu barədə ayə və hədislər mövcuddur.İsra surəsinin 107, 108 və 109-cu ayələrində belə buyurur:" (Müşriklərə) de: «Bu kitaba iman gətirsəniz də, gətirməsəniz də, şübhəsiz, bu kitab(ın nazil olmasın)dan qabaq elm verilmiş kəslər (öz səmavi kitablarından bu kitabın haqq olduğunu bilirlər və) o, onlara oxunan zaman səcdə edərək üzü üstə düşürlər».(107) Və deyirlər: «Pakdır bizim

Rəbbimiz! Həqiqətən Rəbbimizin vədi həmişə yerinə yetəndir.» (108) Və (Allahın hüzurunda) ağlayaraq üzü üstə düşürlər və (Qur'anı eşitmək və başa düşmək) onlarda (qəlblərində olan Allah) xofu və itaətkarlığı artırır. (109)

Məryəm surəsinin 58-ci ayəsində buyurur:"Bunlar (bu on peyğəmbər və Məryəm) Allahın peyğəmbərlərdən – Adəmin övladlarından, (İdrisdən başqa hamısı Nuhun) Nuh ilə birlikdə gəmiyə mindirdiyimiz (övladlarının nəslindən olan) kəslər(in nəslin)dən, (Bəni-İsrail peyğəmbərləri və Məryəm kimi) İbrahim və İsrailin övladlarından, hidayət etdiyimiz və seçdiyimiz şəxslərdən olan (peyğəmbərlərdən) nemət (peyğəmbərlik, din və səma kitabı) əta etdiyi kəslərdir. Rəhman olan Allahın ayələri (səma kitablarının ayələri və ya Onun tovhid və əzəmət nişanələri) onlara oxunan zaman ağlar və səcdə edən halda üzü üstə düşərdilər.

Əl Münziri özünün "Ət tərğib vət tərhib" kitabında İslam peyğəmbəri (s.ə.s)-dən belə bir rəvayət gətirmişdir:" (Qiyamət günü) iki gözə cəhənnəm odu toxunmaz: biri Allah qorxusundan ağlayan göz, digəri isə gecəni Allah yolunda keşik çəkən göz."1

İbn Əbiddünya özünün "Ər riqqə vəl buka" kitabında İslam Peyğəmbəri (s.ə.s)-dən belə rəvayət edir:" Allah üçün ən sevimli damla Onun yolunda tökülmüş qan damlası və bir insanın gecə vaxtı Allah qorxusundan tökdüyü göz yaşıdır." 2

---

[1] 1918 - عن ابن عباس رضي الله عنهما قال سمعت رسول الله صلى الله عليه و سلم يقول عينان لا تمسهما النار عين بكت من خشية الله وعين باتت تحرس في سبيل الله

[2] 6 - وحدثني محمد بن الحسين ، قال : حدثنا زكريا بن عدي ، عن علي بن فضيل ، عن العلاء بن المسيب ، عن الحسن البصري ، قال : قال رسول الله ﷺ : « ما من قطرة أحب إلى الله من قطرة من دم في سبيل الله ، وقطرة دموع قطرت من عين رجل في جوف الليل من خشية الله »

Bu məqamda bir çox rəvayətlər gətirmək olardı, lakin məqalənin həcmini nəzərə alaraq göstərilən nümunələrlə kifayətlənirik.Göründüyü kimi ayə və hədislər ağlamağın Allah dərgahında nə qədər əhəmiyyətli olmasına işarə edir. Həmin səbəbə görə də Peyğəmbərlər bir çox yerlərdə ağlamış və göz yaşları axıtmışdır.Bir neçə nümunəyə işarə etmək istərdik:

İbn Əbiddünya "Ər riqqə vəl buka" kitabında yazır ki, Adəm peyğəmbər xətasına görə yüz il ağlayaraq göz yaşı axıtdı və bu hadisədən sonra öz rəbbindən həya edərək bir daha başını səmaya tərəf qaldırmadı.

Əbu Nueym əl İsbəhani "Hilyətul övliya" kitabında qeyd etdiyi hədisdə belə deyir:" Nuh peyğəmbərin "Nuh" adlanması onun çoxlu ağlayıb sızıldamasına görədir..."3

İbn Əbiddünya "Ər riqqə vəl buka" kitabında yazır:" Əgər Adəm peyğəmbərdən sonra Davud peyğəmbərin ağlaması Yer əhlinin ağlaması ilə ölçülərsə, onda Davud peyğəmbərin ağlaması Yer əhlinin ağlamasına bərabər olar." 4

Əbu Nueym əl İsbəhani "Hilyətul övliya" kitabında belə yazır:" Yəhya ibn Zəkəriyyanın yanağında (göz yaşlarının təsirindən) iki xətt var idi.Atası Zəkəriyya ona deyir: "Mən Allahdan gözüm onun vücudu ilə fərəhlənsin deyə övlad istəmişdim". Yəhya peyğəmbər atasına cavab

[3] *حدثنا محمد بن أحمد، قال: حدثنا الحسن بن محمد، قال: حدثنا أبو زرعة، قال: حدثنا عبد الله بن محمد الجعفي، قال: حدثني أبو غسان الليثي، قال: حدثنا مسلم أبو عبد الله، عن يزيد الرقاشي، قال: إنما سمي نوح عليه السلام نوحاً لطول ما ناح على نفسه*

[4] *334 - حدثنا إسحاق ، حدثنا سفيان ، عن مسعر ، عمن حدثه ، عن ابن سابط ، قال : « لو عدل بكاء داود ببكاء أهل الأرض بعد آدم ، لعدل بكاء داود صلى الله عليه وسلم ببكاء أهل الأرض »*

verir: "Atacan, Cəbrayıl mənə xəbər verdi ki, Cənnətlə Cəhənnəm arasında bir səhra var və onu yalnız çox ağlayanlar keçə bilər."5

İbadət əsnasında ağlamaq:

Belə ki, bir çox hədislərdə namaz qılarkən, Quran tilavət edən zaman və dua edərkən ağlamaq və göz yaşı tökmək tövsiyə olunmuşdur.

İnsanın saleh bəndələr, şəhidlər, möminlər və öz əzizləri üçün ağlaması:

Bu növ ağlamağa gəlincə isə onu digər növlərdən ayırmaq heç də düzgün olmazdı.Lakin bəziləri Peyğəmbərin(s) söyləyib-söyləmədiyi sabit olmayan sözlərə və yaxud mənasını harama yozduqları hədislərə istinad edərək bu cür ağlamağı haram etmişlər. Biz də bəhsimizi əsas etibari ilə möminlərin öz ölülərinə ağlamağının icazəli bir iş olmasının sübut edilməsi istiqamətində aparacağıq.Əlbəttə, bu məsələni sübut etmək üçün İslam Peyğəmbəri (s.ə.s)-in həyatı, onun səhabələrinin adət-ənənəsi, Əhli-Beyt imamlarının hədisləri və Quran ayələrini dəlil gətirəcəyik.İlk növbədə ağlamağın haram olması zənninin mənşəyini araşdıraq.

Tarixi sənədlərdən belə məlum olur ki, bu haramın ilk raviləri ikinci xəlifə Ömər və onun oğlu Abdullah olmuşdur.Onlar peyğəmbərdən rəvayət etmişlər ki, O həzrət(s) belə buyurmuşdur:" Ölən şəxs əhlinin ona ağlamasına görə(qəbrdə) əzab çəkir." Bu hədis müxtəlif forma və kəlmələrlə rəvayət olunmuşdur.Lakin

[5] *حدثنا عبدالله بن محمد ثنا أحمد حدثني سعيد بن شرحبيل الكناني ثنا سعيد بن عطار عن وهيب قال كان ليحيى بن زكريا عليهما السلام خطان في خديه من البكاء فقال له أبوه زكريا عليهما السلام إني إنما سألت الله عز و جل ولدا تقر به عيني فقال يا أبت إن جبريل عليه السلام أخبرني أن بين الجنة والنار مفازة لا يقطعها الا كل بكاء*

müxtəlif forma və kəlmələrlə rəvayət edilməsinə baxmayaraq bu hədis açıq-aşkar şəkildə Quran ayəsi, Peyğəmbər(s) və onun əhli beytindən gələn hədislərlə ziddiyyət təşkil etməkdədir.Hətta Peyğəmbərin(s) zövcəsi Aişə xanım da bu hədisi eşidən zaman öz etirazını bildirmişdi .İbn Əsir "Camiul usul min əhadisir rəsul" kitabında Übeydullah ibn əbi Muleykədən rəvayət edir ki, bir gün Osman ibn Əffanın qızı vəfat edir.Biz orada idik.Abdullah ibn Ömər və İbn Abbas da gəldi.Mən (ravi-yəni:rəvayəti nəql edən) onların arasında oturmuşdum.Abdullah ibn Ömər qarşısında əyləşən Əmr ibn Osmana dedi ki, nə üçün camaatı ağlamaqdan çəkindirmirsən? Çünki peyğəmbər(s) buyurmuşdu ki, ölən şəxs əhlinin ona ağladığı üçün cəzalanır.

İbn Abbas dedi ki, bəli, Ömər də bu sözü deyirmiş.Sonra bir əhvalat danışdı: bir gün Ömərlə birlikdə Məkkədən xaric olub Beyda adlanan bir yerə çatdıq.Birdən bir ağacın kölgəsi altında atlılar gördük.Ömər mənə dedi ki, get, onların kim olduğunu öyrən.Mən getdim və orada Suheybi gördüm.Bu barədə Ömərə xəbər verdim.Ömər onu öz yanına çağırmağı əmr etdi.Qayıdıb onu Ömərin yanına çağırdım.(Bu hadisədən bir müddət sonra Ömər bıçaq zərbələrindən yaralandığı zaman) Suheyb ağlaya-ağlaya gəlib belə deyirdi:" Ah olsun, qardaşcan! Ah olsun səhabəyə!" Ömər (onu bu halda gördükdə) dedi:" Ey Suheyb, mənim üçün ağlayırsan? Bir halda ki, Peyğəmbər buyurmuşdur:" Həqiqətən, ölən şəxs öz əhlinin ona ağlamasına görə cəzalanar." İbn Abbas (sözünə davam edərək) dedi ki, Ömər öləndən sonra bu əhvalatı Aişəyə danışdım. O isə cavabında belə dedi:" Allah Ömərə rəhmət etsin.And olsun Allaha ki, Peyğəmbər elə

bir söz deməyib, lakin belə buyurmuşdu ki, kafir öz əhlinin ona ağladığı üçün cəzalanar." Aişə (əlavə edərək) dedi ki, Quran sizə kifayətdir:" Günah yükü ilə yüklənmiş heç kəs digərinin günah yükünü götürməz (heç kəs dünyada başqasının işinə görə cəzalanmaz və axirətdə də onun cəzasını çəkməyə məruz qalmaz)..."6İbn Abbas dedi:" Allah güldürən və ağladandır." (Ravi) İbn Əbi Muleykə dedi:" Abdullah ibn Ömər bir kəlmə belə danışmadı." 7

İbn Əsir bu hədisin sonunda qeyd edir ki, bu rəvayəti Buxari və Müslüm də öz səhihlərində yazmışlar.Müslümün "Səhih"ində gələn bu rəvayət "Əlməyyit yuəzzəbu bibukai əhlihi əleyhi" babında 2192 və 2193 saylı hədislərdir.

Bir sözlə, bu hədis əhli sünnə təriqətinin bir çox kitablarında azacıq dəyişikliklə öz əksini tapmışdır.

Əbu Hureyrədən olan digər bir rəvayətdə isə belə deyilir:" Bir gün Peyğəmbər(s) əhli beytindən bir nəfər dünyasını dəyişdi. Qadınlar toplaşıb ona ağladığı zaman Ömər bu işə mane olaraq onları qovdu.Peyğəmbər(s) buyurdu:" Ey Ömər, onlarla işin olmasın, gözlər yaşlı, qəlblər dərdli və zaman da yaxındır."8Bu rəvayət

---

[6] Fatir surəsi, 18-ci ayə

[7] 8563- (خ م س) ابن أبي مليكة قال : « توفيَتْ بنت لعثمانَ بن عفانَ بمكةَ ، فجئنا نشهدُها ، وحضرها ابنُ عمر وابنُ عباس ، فإني لجالس بينهما ، فقال عبد الله بنُ عمر لعمرو بن عثمان - وهو مواجهه - ألا تَنْهى عن البكاء ، فإن رسولَ الله -ﷺ- قال : إن الميّتَ ليعذَّبُ ببكاءِ أهلِهِ عليه ؟ فقال ابنُ عباس : قد كان عمرُ يقول بعضَ ذلك ، ثم حدَّث ، فقال : صدرتُ مع عمر من مكة ، حتى إذا كنَّا بالبَيداءِ ، فإذا هو بِرَكْب تحت ظِلِّ شجرة ، فقال : اذهب فانظر مَن هؤلاء الركب ؟ فنظرت ، فإذا [هو] صُهيب ، قال : فأخبرتُه ، فقال : ادعُه ، فرجعتُ إلى صهيب ، فقلت : ارتحل ، فالحق بأمير المؤمنين ، فلما أن أصيب [عمر] دخل صهيب يبكي ، يقول : واأخاه ، واصاحباه ، فقال عمر : يا صهيب ، أتبكي عَليَّ وقد قال رسولُ الله -ﷺ- : إن الميتَ ليعذَّبُ ببعض بكاءِ أهله عليه ؟ فقال ابنُ عباس : فلما مات عمر ذكرتُ ذلك لعائشة: فقالت : يرحم الله عمر ، لا واللَّه ما حدَّثَ رسولُ الله -ﷺ- : إنَّ الميتَ يعذَّب ببكاء أهله عليه، ولكن قال : إن الله يزيد الكافر ببكاء أهله عليه ، وقالت عائشة : حَسْبُكم القرآن { ولا تَزرُ وازرة وزْر أخرى } قال ابن عباس عند ذلك : واللَّهُ أضحَكَ وأبكى ، قال ابن أبي مليكة : فما قال ابن عمر شيئا » أخرجه البخاري ومسلم.

[8] 1870 - أَخْبَرَنَا عَلِيُّ بْنُ حُجْرٍ قَالَ حَدَّثَنَا إِسْمَاعِيلُ - هُوَ ابْنُ جَعْفَرٍ - عَنْ مُحَمَّدِ بْنِ عَمْرِو بْنِ حَلْحَلَةَ عَنْ مُحَمَّدِ بْنِ عَمْرِو بْنِ عَطَاءٍ أَنَّ سَلَمَةَ بْنَ الأَزْرَقِ قَالَ سَمِعْتُ أَبَا هُرَيْرَةَ قَالَ مَاتَ مَيِّتٌ مِنْ آلِ رَسُولِ اللَّهِ -ﷺ- فَاجْتَمَعَ النِّسَاءُ يَبْكِينَ عَلَيْهِ فَقَامَ عُمَرُ يَنْهَاهُنَّ وَيَطْرُدُهُنَّ فَقَالَ رَسُولُ اللَّهِ -ﷺ- « دَعْهُنَّ يَا عُمَرُ فَإِنَّ الْعَيْنَ دَامِعَةٌ وَالْقَلْبَ مُصَابٌ وَالْعَهْدَ قَرِيبٌ ».

Nəsainin "Sünən", İbn Hibbanın "Səhih", Beyhəqinin "Sünən", İbn Macənin "Sünən"ində və digər kitablarda da gəlmişdir.

Sadaladığımız hədisləri və ya eyni məzmunda olan digər hədisləri nəzərə alsaq belə məlum olur ki, Peyğəmbər (s.ə.s) heç də ağlamaq və göz yaşları axıtmağı haram etməmiş, hətta onun təbii olmasını səbəb göstərərək icazəli olmasını buyurmuşdur.İbn Əbi Muleykənin hədisində isə hətta Aişə bu qadağanın (ağlamağın haram olmasını) Quran ayəsi ilə ziddiyyət təşkil etdiyini də vurğulamışdır! Aişənin qadın olmasına baxmayaraq, sanki belə hallarda Abdullah ibn Ömər kimi özlərini hədis söyləyən və alim bilən səhabələrə -"Quran sizə kifayətdir"- deyərək dərs keçirmiş.Yəni əgər hər hansı bir hədisi eşitdiyimiz zaman onun düzgünlüyündə şəkk etsək həmin rəvayəti Quranla tutuşdurmaq lazımdır vəəgər Qurana uyğun gələrsə ona inanıb əməl etməli, əksinə zidd olduğu təqdirdə isə rədd etməli və bir kənara atmalıyıq!

İslam Peyğəmbəri (s.ə.s)-in Uhud döyüşündə şəhid olan əmisi Həmzəninarxasınca ağlaması,yaxın və əziz insanlar üçün ağlamağın icazəli olmasına digər bir dəlil ola bilər.Belə ki, İbn Səd "Ət təbəqat əl kubra" kitabında belə rəvayət edir:" Peyğəmbər (Uhud döyüşündən sonra) Bəni əbd əl Əşhəl xanımlarının öz ölülərinə ağlamasını eşidən zaman(təəssüflə) buyurur:" Lakin Həmzə üçün ağlayan biri yoxdur!" Səd ibn Məaz bu sözləri eşidir və Bəni əbd əl əşhəl xanımlarını Peyğəmbərin(s) qapısına gətirir və onlar Həmzəyə ağlayırlar.Peyğəmbər(s) bunu eşidib qadınlara dua edir və onları

(evlərinə) göndərir.Bu hadisədən sonra Ənsar xanımlarından hər biri öz ölüsünə ağlamazdan əvvəl Həmzəyə ağlayardı " 9

Peyğəmbərin(s) Həmzə üçün də göz yaşı axıdılmasını istəməsi və sonradan gəlib Həmzəyə matəm saxlayan xanımlara dua etməsi açıq-aşkar şəkildə bu işin icazəli olmasına möhkəm bir dəlildir.Ümumiyyətlə, peyğəmbərin şəhidlərə və öz oğlu İbrahimə göz yaşı axıtması tarixin sətirlərinə qara hərflərlə həkk olunmuşdur.

Hakim Nisaburi "Müstədrək" kitabında belə rəvayət edir:" (bir gün) Ummul Fəzl bint əl Haris Peyğəmbərin(s) yanına daxil olub deyir: “ Ey Allahın elçisi, bu gecə pis bir yuxu görmüşəm.” Peyğəmbər(s) soruşur:“ O nə yuxudur ki görmüsən?” Ummul Fəzl deyir: “Yuxum ağır yuxu idi”.Peyğəmbər (yenə də) soruşur: “Nə yuxudur o?”. Ummul Fəzl deyir:" Gördüm ki, sənin bədənindən bir parça ayrılıb mənim qucağıma qoyuldu. Peyğəmbər(s) buyurdu: “Yaxşı yuxu görmüsən. İnşaallah Fatimə(s.ə) bir oğlan uşağı dünyaya gətirəcək və o, sənin qucağında olacaq. Fatimə(s.ə) Hüseyni(ə) dünyaya gətirdikdən sonra, uşaq Peyğəmbərin(s) dediyi kimi mənim qucağımda böyüdü. Bir gün Peyğəmbərin(s) hüzuruna daxil oldum və Hüseyni(ə) onun qucağına qoydum. Birdən mənim gözüm Peyğəmbərin(s) gözlərindən axan yaşlara düşdü. Dedim: “Ey Allahın Peyğəmbəri, anam və atam sənə qurban olsun?!” Peyğəmbər(s) buyurdu: "Cəbrayıl yanıma gəlib xəbər verdi ki, mənim ümmətim bu oğlumu öldürəcək. (Ummul Fəzl) dedi: “Bunu?!(yəni bu

[9] ... سمع رسول الله، ﷺ، البكاء في بني عبد الأشهل على قتلاهم، فقال رسول الله، ﷺ: لكن حمزة لا بواكي له فسمع ذلك سعد بن معاذ فرجع إلى نساء بني عبد الأشهم فساقهن إلى باب رسول الله، ﷺ، فبكين على حمزة، فسمع ذلك رسول الله، ﷺ، فدعا لهن وردهن، فلم تبك امرأة من الأنصار بعد ذلك إلى اليوم على ميت إلا بدأت بالبكاء على حمزة ثم بكت على ميتها.

uşağı öldürəcəklər?)” Peyğəmbər(s) buyurdu: “Bəli, (Cəbrayıl) mənə onun qırmızı türbətindən bir qədər gətirdi”. 10

Buna bənzər digər rəvayətləri də xatırlatmaq olardı. Lakin bizim məqalənin həcminə sığışmayacaq deyə onları gətirmədik. Ağlamaq və göz yaşı axıtmaq Peyğəmbərin(s)zamanında meydana çıxmamışdır, əksinə bu təbii hal və hadisə ən qədim tarixin dərinliklərinə qədər uzanmaqdadır. Belə ki bir çox peyğəmbərlərin müxtəlif məqamlarda ağlayıb göz yaşı axıtmaları tarixin yaddaşında həkk olunmuşdur. Allah təala Qurani Kərimdə Yusif surəsinin 84-cü ayəsində belə buyurur: " Və onlardan üz döndərib dedi: «Heyif Yusufdan!» Və qəm-qüssədən (qəm-qüssənin çoxluğundan) onun hər iki gözünə ağ gəldi və onu daim qüssə boğurdu."

Yaqub peyğəmbər oğlu Yusifə o qədər ağlamışdı ki, oğlanları ona etiraz edərək belə deyirdilər: " (Oğlanları) dedilər: «And olsun Allaha, sən Yusufu o qədər xatırlayırsan ki, axırda ölüm yatağına düşəcək və ya həlak olacaqsan."

Əhli sünnə alimi Zəməxşəri bu ayələrin təfsirində belə yazır: “Göz yaşları çoxaldıqca göz bəbəyinin qarasını aradan apararaq onu ağ rəngə boyamışdı”. Bəziləri isə onun (Yaqub peyğəmbərin) gözlərinin kor olmasınıda demişdir..." İslam Peyğəmbərindən rəvayət olunur ki, o Cəbrayıldan soruşur: "Yaqubun Yusifə ağlmasının miqdarı nə qədər idi?” Cəbrayıl cavab verir: yetmiş matəm saxlayan qadının

---

[10] *4805 - أخبرنا أبو عبد الله محمد بن علي الجوهري ببغداد ، ثنا أبو الأحوص محمد بن الهيثم القاضي ، ثنا محمد بن مصعب ، ثنا الأوزاعي ، عن أبي عمار شداد بن عبد الله ، عن أم الفضل بنت الحارث ، أنها دخلت على رسول الله ﷺ فقالت : يا رسول الله ، إني رأيت حلما منكرا الليلة ، قال : « ما هو ؟ » قالت : إنه شديد ، قال : « ما هو ؟ » قالت : رأيت كأن قطعة من جسدك قطعت ووضعت في حجري ، فقال رسول الله ﷺ : « رأيت خيرا ، تلد فاطمة إن شاء الله غلاما ، فيكون في حجرك » فولدت فاطمة الحسين فكان في حجري كما قال رسول الله ﷺ ، فدخلت يوما إلى رسول الله ﷺ فوضعته في حجره ، ثم حانت مني التفاتة ، فإذا عينا رسول الله ﷺ تهريقان من الدموع ، قالت : فقلت : يا نبي الله ، بأبي أنت وأمي ما لك ؟ قال : « أتاني جبريل عليه الصلاة والسلام ، فأخبرني أن أمتي ستقتل ابني هذا » فقلت : هذا ؟ فقال : « نعم ، وأتاني بتربة من تربته حمراء » « هذا حديث صحيح على شرط الشيخين ، ولم يخرجاه »*

ağlaması miqdarında. (Peyğəmbər soruşur): Onun savabı nə qədər idi? (Cəbrayıl cavab verdi): Savabı yüz şəhidin savabı qədərdir. Bir an olsun belə (Yaqub) Allaha bəd güman etməmişdi."11

İslam tarixində Əhli beyt imamlarının da ağladığı və öz şiələrini şəriət çərçivəsində ağlamağa təşviq etdikləri qeyd olunmaqdadır. Buna misal olaraq bir neçə rəvayəti qeyd edirik:

1) Şeyx Tusinin "Əmali" kitabında İbn Abbasdan nəql olunur ki, Peyğəmbər(s) vəfat məqamında olan zaman saqqalı göz yaşlarından islanana qədər ağladı.Peyğəmbərdən(s) soruşdular: Ey Allahın elçisi, səni ağladan nədir? Buyurdu: Zürriyyəmə (əhli beytimə) və ümmətimdən olacaq pis insanlarının onlara edəcəklərinə görə ağlayıram.Sanki Fatiməyə məndən sonra necə zülm olunduğunu indidən görürəm.Məni səsləyib nida edir: “Atacan! Atacan!” Lakin ümmətimdən heç kim ona yardım etmir.Həzrəti Fatimə(s.ə) bu sözləri eşidib ağladı.Peyğəmbər(s) ona dedi: Ağlama, mənim əziz qızım.Həzrəti Fatimə(s.ə) dedi: Məni ağladan səndən sonra qarşılaşacağım zülmlər deyil. Mən sənin ayrılığına ağlayıram, ey Allahın elçisi! Peyğəmbər(s) buyurdu: Müjdə olsun, ey Muhəmmədin qızı sən mənə ilk yetişənlərdən olacaqsan.Həqiqətən, sən əhli beytimdən mənə qovuşacaq ilk şəxssən." 12

2) Əllamə Məclisinin "Biharul ənvar" kitabında Süveyr ibn əbi Faxitə İmam Əli ibn Hüseynin(ə) bir Qüreyşli kişiyə Adəmin

---

[11] Zəməxşəri, Yusif surəsinin 84-cü ayəsinin təfsiri

[12] *عن عبد الله بن العباس، قال لما حضرت رسول الله)صلى الله عليه و آله(الوفاة بكى حتى بلت دموعه لحيته، فقيل له يا رسول الله، ما يبكيك فقال أبكي لذريتي، و ما تصنع بهم شرار أمتي من بعدي، كأني بفاطمة ابنتي و قد ظلمت بعدي و هي تنادي يا أبتاه، يا أبتاه فلا يعينها أحد من أمتي. فسمعت ذلك فاطمة)عليها السلام(فبكت، فقال لها رسول الله)صلى الله عليه و آله(لا تبكين. يا بنية. فقالت لست أبكي لما يصنع بي من بعدك و لكن أبكي لفراقك، يا رسول الله. فقال لها أبشري يا بنت محمد بسرعة اللحاق بي، فإنك أول من يلحق بي من أهل بيتي.*

oğlanlarının əhvalatı barədə danışdığını eşidir.İmam(ə) sözünün sonunda belə buyurur:"... Adəm qırx gecə-gündüz oğlu Habilə ağladı..." 13

3) Əllamə Hillinin "Vəsailuş şiə" kitabında İmam Sadiq (ə)-dan nəql olunur ki, O Həzrət belə buyurmuşdur:"...İmam Əli ibn Hüseyn atası Hüseyn ibn Əliyə (Allahın salamı onlara olsun) iyirmi və ya qırx il ağlamışdır.Hər zaman qarşısına təam qoyulduqda Hüseynə ağlardı.Xadimlərindən biri ona dedi: Sənə qurban olum, ey Allah elçisinin balası, bu halın səni həlak edəcəyindən qorxuram! Həzrət bu ayəni tilavət etdi:" Dedi: «Mən öz ağır kədər və qüssəmdən (sizə deyil) yalnız Allaha şikayət edirəm və Allah tərəfindən sizin bilmədiyiniz bir şey (Yusufun diri olmasını) bilirəm." (və imam(ə) əlavə etdi) Fatimə balalarının qətlini xatırladığım hər zaman göz yaşları məni boğur!" 14

Məqaləni diqqətlə oxuduqdan sonra belə bir nəticə almaq olar ki, insanın öz əzizi üçün ağlaması və ya göz yaşı axıtması təbii hiss olduğu üçün şəriət nöqteyi nəzərindən də icazəli hesab edilir.Əlbəttə, dünyasını dəyişən insanın mövqeyi, kamalı, məqamı hər nə qədər uca və qətlə yetirildiyi şərait hər nə qədər dəhşətli olarsa ona olan hüzn də daha şiddətli olacaq.Lakin bu hüzn, ağlamaq və göz yaşları insanı Allahın itaətindən sapdırmamalıdır. Peyğəmbərlər(s) və onların əzizləri üçün ağlayıb göz yaşı axıtmaqsa bizə tövsiyə olunmuş və iman əlaməti hesab edilən əməllərdəndir.

---

[13] Əllamə Məclisi, Biharul ənvar kitabı, cild 11, səh, 230

[14] ...علي بن الحسين (عليه السلام) فبكى على الحسين (عليه السلام) عشرين سنة أو أربعين سنة ، ما وضع بين يديه طعام إلا بكى حتى قال له مولى له : جعلت فداك ، إني أخاف عليك أن تكون من الهالكين ، قال : « إنما أشكو بثي وحزني إلى الله ، وأعلم من الله مالا تعلمون » إني لم أذكر مصرع بني فاطمة إلا خنقتني لذلك عبرة .

Huseyn(ə) düşmənlərinin xüsusiyyətləri:

Həyatı paklıq və ismətlə zəngin olmuş bir insana cəsarət etmək yalnız və yalnız Allahla düşmənçilikdən qorxmayan adamdan müşahidə oluna bilər. Sözügedən cəsarətin ölümlə hədələmək olduğu nəzərə alındıqda həmin şəxsin uca Allahdan heç çəkinmədiyi aşkar olur. Həmin pak insanın isə aləmlərə rəhmət olan Peyğəmbərin(s) nəvəsi olduğu, hər növ çirkinlik və günahdan uzaqlaşdırılmış pak əhli-beytə mənsubluğu, barəsində ilahi rəsulun "o məndəndir, mən də ondanam və o cənnət cavanlarının ağasıdır" dediyi bilindikdə İmam Huseyn(ə) düşmənlərinin nə qədər rəzil adamlar olduğu anlaşılır. Əlinizdəki bu bukletdə öz adlarını tarixin ən qara səhifəsinə böyük hərflərlə yazmış o vicdansız şəxslərin üç əsas cəhətinə işarə edəciyik və onların necə şərəfli bir insanla vuruşduqlarını göstərəciyik.

1)*Ibadətsizlik*: varlıq aləminin yaradıcısına olan itaət və ibadət insan övladının birinci vəzifəsidir. İlk insani vəzifəsini yerinə yetirməyən şəxs digər yükümlüklərinin öhdəsindən heç bir halda gələ bilməz. Nəticə etibarı ilə Allaha ibadət etməyərək Ondan uzaq düşmüş adamın istənilən günaha bulaşması ehtimal olunur. Ömrü boyunca alnını bir dəfə də olsun səcdəyə düşməklə yerə qoymamış Yezid

kimilərin İmam Huseyn(ə) kimi pak insanları qətlə yetirməsi də eynilə ilahi itaətin nəticəsi ilə uyğunluq təşkil edir.

Həqiqətən, İmam Huseyn(ə)-ın düşmənləri namaz və bu kimi ilahi itaət hesab olunan əməllərin nə olduğunu anlamamışdılar. Yezid və digər əsas başçılar namaz qılmamaqdan əlavə şərab içmək, meymunla oynamaq və möhtərəm insanları öldürməkdən də çəkinmirdilər. Onların köməkçiləri isə bəzən namaz qılıb ibadətə zahirdə meyl göstərsələr də ilahi itaətin həqiqətini heç başa düşməmişdilər. Nə dini mərifətləri var idi, nə də uca Allahla köklü rabitələri. Həqiqətən, onların heç biri ruhları ilə ibadətə bağlanmamışdı. Bu itaət və ilahi ibadətin yoxluğu Huseyn(ə) düşmənlərinin əsas göstəricisi idi.

Lakin İmam Huseyn(ə)-ın səhabələrinin halı... Necə də qəribə və dərin ilahi məhəbbətlə dolu bir səhnə... Onların Aşura günündəki abu-havası. Aşura günü həyatları boyunca yaşatmış olduqları mənəviyyatın kuliminasiyası və məntiqi nəticəsi idi. Onlar dünyaya və içindəkilərə zərrə qədər belə bağlanmamışdılar deyə, rahatlıqla İmam Huseynə(ə) qoşulub Kərbəlaya üz tuta bildilər. Həmçinin uca Allaha elə bərk və möhkəm şəkildə bağlanmışdılar ki, Onun razılığı üçün öz mallarından, əhli-əyalından və ən əsas isə bal kimi hər şeydən şirin canlarından keçdilər. Onlar Huseynin(ə) eşq dolu bu cümləsinin həqiqətini öz ürəklərinə yazmış şərafətli insanlar idi: “*İlahi Səni tapan nə itirib ki, Səndən uzaq düşən nəsə tapa bilsin”.*

2)Dünyapərəstlik: insan övladının dünya və onun içindəkilərlə olan sarsılmaz rabitəsi ilahi məhəbbətlə birgə olmazsa, şübhə yoxdur ki,

gün keçdikcə bu rabitə daha da güclənəcək və elə bir həddə çatacaqdır ki, bu əlaqənin gözlənilmədən qırılması-yəni ölüm insan üçün arzuolunmaz və qorxulu olacaq. İlahi nəbilər insanları Allahı sevib Ona itaət etməyə çağırdılar ki, qaçılmaz ölüm həqiqəti onlar üçün qorxulu bir şey olmasın. Odur ki, islami təlimlərin məntiqinə əsasən həyatı ibadətsiz keçən insanın dünyapərəst olması labud və inkarolunmaz həqiqətdir. Yezid tərəfdarlarının uca Allaha itaət və ibadətdən uzaq düşdüklərini qeyd etdik. Nəticə etibarı ilə onların dünyapərəst olması da təbii bir hal idi. Lakin onların dünyaya pərəstişi özünün pik həddinə çatmışdı. Tanınmış səhabə Səd ibn Vəqqasın oğlu Ömər İmam Huseyn(ə) ağanı çox yaxşı tanıdığı və onun nə cür fəzilətlərə sahib olduğunu bildiyi halda Yezid qoşununa rəhbərlik etdi. Çünki ona Yezidin sağ əli hesab olunan Kufə şəhərinin əmiri ibn Ziyad, Rey torpaqlarında başçılıq məqamı verəcəyini vəd etmişdi. Əbəs deyildir ki, Yezidin qoşununda olanların çoxu kiçik məbləğli bəxşişlərin müqabilində İmam Huseynə(ə) qarşı vuruşurdu. Onların qəlbi dünya sevgisindən elə bərkimişdi ki, nə uşaqlara rəhm etdilər, nə də əsir düşmüş qadınlara. Beyinləri dünya arzularına çatmaq üçün dəhşət doğuracaq həddə qəzəblə dolmuşdu. Nəticə göz qabağında idi. 6 aylıq uşaq öldürüldü, Əbəlfəzlin(ə) qolları kəsildi, heç kim sağ buraxılmadı və Huseynin(ə) başını kəsməklə də ürəkləri soyumadı. Qadın və uşaqları zülmlə Yezidin sarayına əsir apardılar. Hələ bəs deyilmiş kimi yol boyu İmam Huseynin(ə) başını nizəyə taxıb ona kafir və xarici(uca Allaha pənah aparırıq) dedilər. Çünki onların qəlbi dünya sevgisində qərq olmuşdu və onlar zərrə qədər də Allahdan

qorxmurdular.

Lakin Huseynin(ə) vəfalı dostları... Onlar dünyaya aid hər bir şeylərini tərk edib İmama(ə) qoşulmuşdular. Həbib ibn Məzahir Kufədən olan imkanlı və geniş ailəyə sahib yaşlı bir kişi idi. Hər şeyini geridə qoymuş və özünü Peyğəmbər(s) nəvəsinə həsr etmişdi. Həbib kimi digər səhabələr də dünyada olan hər şeylərindən əlavə canlarını da imama(ə) təslim etmişdilər. Çünki onlar zərrə qədər bu həyata bağlanmamış və bütün qəlbləri ilə Allahdan qorxurdular. Zatən şəhadətləri də məlum həqiqətin ən son və mükəmməl təcəssümü idi.

3)*Qəddarlıq*: aşura günü- insanlıq tarixinin ən faciəli səhnəsidir. Kimin qətlə yetirildiyi və necə qətl olunduğu nəzərə alınarsa aşura dəhşəti terrorizmin və qətliamların başında dayanır. Damarlardaki qanı donduran aşura gününün zülmləri neçə vaxt öncədən cücərməyə başlamışdı. Hələ Muaviyənin dövründə Hz.Əlini(ə) sevən insanlara olunan haqsızlıq və təcavüzlər aşura qətliamının ilk cücərtiləri idi. Hz.Əlinin(ə) yaxın dostu olmuş Hucr ibn Ədiy və iki gənc oğlunun vəhşicəsinə Muaviyə tərəfindən öldürülməsi, şiələrin daim təqib və təzyiq altında yaşaması aşuraya doğru aparan yolun başlanğıcı idi. Kərbəla faciəsinin yaxınlaşması isə İmam Huseynin(ə) Kufəyə göndərdiyi elçilər olan Muslim ibn Əqil və Qeys ibn Muzəhhərin qətli ilə hiss olundu. İmama(ə) ardıcıl şəkildə 10000 məktub yazaraq öz şəhərlərinə çağırmış Kufə əhalisi öncə Müslümü, sonra isə Huseynin(ə) özünü tək qoydular. Qəddarlıqları hələ Muaviyənin dövründən şiələrə bəlli olan düşmən əsgərləri Müslümü öldürməklə sakitləşməmiş və onun iki azyaşlı balasının da başlarını

kəsmişdilər. Bundan öncə Hz.Əli(ə) həyatda olduğu zaman Muaviyənin Hicaz torpaqlarına qarət məqsədilə göndərdiyi ordu komandanı Busr ibn Ərtad da Peyğəmbərin(s) əmisi oğlu və Əlinin(ə) Yəməndəki nümayəndəsi olan Übeydullah ibn Abbasın iki yeniyetmə oğlunu amansızcasına öldürmüşdü. Görünən budur ki, yad əllərlə yaradılmış müasir terroristlərin "baş kəsmə mədəniyyəti" Muaviyə və Yezid hakimiyyətinin şiələrə və əhli-beyti sevən insanlara qarşı ən güclü silahı idi. Qeyd etmək lazımdır ki, aşura günündəki dəhşətlərdən qabaq İmam Huseynin(ə) Bəsrə şəhərinə göndərdiyi elçisi Süleyman ibn Əzim də Yezid hakimiyyətinin dirəyi olan ibn Ziyad tərəfindən öldürülmüşdü. Bütün bunlar Aşuraya qədər baş verən qəddarlıqların çox az bir hissəsidir.

Amma aşura günü...Şiələrin və ümumiyyətlə, qəlbində rəhm olan bütün insanların ürəyini yandıran zülmlərlə dolu bir gün... Mərhəmətli insanların Hz.Zeynəb(s.ə) kimi görməyə deyil, hətta eşitməyə belə tab gətirə bilmədiyi dəhşətli qətllərlə dolu bir gün...Fərat çayının yolu bağlanmaqla Imamın(ə) qoşunu susuz qoyuldu, 6 aylıq südəmər körpə boğazından oxlandı, Huseynin(ə) qardaşları və qardaş oğulları bircə-bircə öldürüldü, Əbəlfəzlin(ə) qolları kəsildi, Huseynin(ə) gənc oğlu Əliəkbər gözünün qarşısında tikə-tikə doğrandı və daha nələr...Qələm o dəhşətləri yazmağa acizdir! Bütün bunlar azmış kimi şəhid olmuş İmam Huseyn(ə) və dostlarının cəsədləri üzərindən atlar çapıldı. Qadınların xeymələrinə hücumlar edildi və bu kimi bir çox şərəfsiz işlər görməkdən çəkinilmədi.

Lakin İmam Huseynin(ə) mərhəməti...Eynilə babası Peyğəmbər(s) və atası Əli(ə) kimi o da bir rəhmət və qayğıkeşlik nümunəsi idi. Aşura günündə yerə düşmüş cəsədindəki yaraların içində digərlərindən seçilən bir yara o həzrətin(ə) bədənində daha öncə yaranmışdı. Gecələr ərzaqla dolu ağır zənbili belinə atıb qapı-qapı fəqirlərin və yoxsulların evlərinə baş çəkməsi və onların ehtiyacını qarşılaması üzündən belinə yara düşmüşdü. Bu işin gündəlik və tez-tez olması onun yarasını da gözlə görünən hala salmışdı. İmam Huseyn(ə) da ata-babası kimi yetimlər atası idi. Kufəyə gedən yolda imamın(ə) qarşısını kəsmək üçün göndərilmiş Hürrün qoşunu ilə Huseynin(ə) rəftarı kifayət qədər humanist idi. Suyu qurtarmaqda olan düşmən qoşununun əsgərlərinə, hətta onların heyvanlarına da su verildi.İgidlikdə dillər əzbəri olmuş Hürr su içərkən xəcalətindən titrəyirdi. İmam Huseyn(ə) isə ona sakit və rahat olmağı, özündən sonra atına da su verməyi buyurdu. Aşuradan bir gün öncə Huseyn(ə) kufəlilərin ona yazdığı məktubları bir tonqal qalayaraq yandırdı və səbəbinin xainliyə müqabil yarana biləcək təbii qəzəb olduğu düşünüldükdə o həzrətin(ə) cavabı çox qəribə olur. İmam(ə) buyurur ki, bu işi əsla qəzəbə görə etmir, əksinə ondan sonra məktubların ibn Ziyadın əlinə düşərək kufəlilərdən bir çoxunun öldürülməsindən qorxması idi. İmam Huseynin(ə) mərhəməti xain insanları belə düşünəcək qədər geniş idi. Çünki onun mərhəməti ilahi mərhəmətdən qaynaqlanırdı.

Müəllif: Rza Əliyev

Qəmə vurmaq:

Müqabil tərəfin iddiası- Qəmə vurmağın haramlığı və yaxud Quran və Sunnəyə zidd olması sübut olunmayıb:

Qəmə vurmağın caizliyini (icazəli olduğunu) iddia edənlər belə deyirlər: “ Qəmə vurmağın caizliyinə işarə olunan rəvayətləri qəbul etmək məcburiyyətindəyik (Xanım Zeynəbin (s.ə.) kəcavənin sütunu ilə başına vurması və İmamın (ə) buna etiraz etməməsi və digər bu kimi bəyan etdikləri dəlillər kimi). Yaxud da deyirlər ki, Quran və Sünnədə bu barədə, nə icrasına nə də qadağasına heç bir nəssaşkar dəlil) gəlməmişdir. Bu sonradan baş vermiş işdir. Sonradan baş verən hər bir işdə fiqhi qanun və meyar budur ki, haramlığı sübut olmadığı təqdirdə həmin iş mübahdır (yəni, caizdir) və heç bir günahı yoxdur.

Bəli, bu dəlillərə qarşı tərəfin qəmə vurmaq barədə haram fətva verən bəzi hissə alimləri etiraz edərək demişlər: Qəmə vurmaq özünə zərər yetirməkdir, zərər yetirmək isə şəriətdə haramdır!

Qəmə vurmağın caizliyini qəbul edənlər isə onlara belə cavab verirlər: Qəmə vurmaq tam zərər olmadığına görə haram deyil. Əksinə birbaşa ölüm ilə nəticələnən, bir üzvün məhv olması və yaxud kəsilməsi və buna oxşar hallar haramdır.

Bəziləri də “Ünvani-sanəvi” ilə qəmə vurmağı haram etmiş və demişlər: Həqiqətən, qəmə vurmaq insanlarda Əhli-beyt (ə) məzhəbinə nifrət yaradır.

Digər bir dəstə bunlara belə cavab verir: Qəmə vurmaqla heç də

məzhəbə nifrət yaranmır. Əksinə bu misilsiz, əvəzolunmaz aşkarlıq məzhəbi tanıtdırır və yayır. Vilayətə bağlı olanların bənzərsiz sevgisini və İmam Hüseynə (ə) əvəzolunmaz məhəbbət və sevgini eks etdirir.

Qəmə vurmağı riya hesab edənlər yanlış düşüncədədirlər. Riya yalnız insanlar arasında yaxşı hesab olunan işlərdə olur. Qəmə vuranlar bilirlər ki, digərlərindən əlavə öz həmməzhəblərindən də bəzilərinin qınaq obyektinə çevriləcəklər. Bununla belə dediyimiz kimi savab qazanmaq ümidi ilə bunu edirlər. Qəmə vurmaq hüzn və fəryad əlamətlərindən bir nişanə olması şərt deyil və müstəhəb bir iş olması mümkündür. Beləliklə, hüzn və fəryad çərçivəsinə daxil olduğuna və həmçinin İslam şüarı kimi də müşahidə olunduğuna görə müstəhəbliyinə də fətva vermək olar.

Hər halda, bu iş təqlidi bir məsələdir. Əgər mükəlləfin təqlid etdiyi müctəhid qəmə vurmağı caiz bilsə (icazə versə), mükəlləf bu işi etməsində müstəqildir. Əgər təqlid etdiyi müctəhid icazə verməsə, bu iş onun üçün əsla caiz deyil. Qəmə vurmaqda da digər bəzi əməllərdəki kimi fətva fərqləri mövcuddur.

Baş yarmaq, zəncir vurmaq və qan çıxartmaqla bağlı islamın böyük merceyi təqlid alimlərinin fikrləri:

Ayətullah Seyyid Əli Xamenei: "Qılıncla baş yarmaq sonradan uydurulmuş bir əməldir və dinlə əlaqəsi olmayan işlərdəndir. Heç şübhə yoxdur ki, Allah da onun həyata keçirilməsinə razı deyil. Ümumiyyətlə, məzhəbin zəifləməsinə və onun qeyri-ciddi bir şəkildə tanıtdırılmasına səbəb olan əməllərə icazə verilmir."

Mərhum Ayətullah Seyyid Əbul-Həsən İsfahani: "Qılıncla baş yarmaq haramdır."

Mərhum Ayətullah Seyyid Möhsün Həkim: "Qılıncla baş yarmaq dini bir iş deyil və heç bir savabı yoxdur. Bu iş islamın, müsəlmanların və Əhli-Beytin zərərinədir."

Mərhum Ayətullah Seyyid Əbul Qasim Xoi: "Qılıncla baş yarmaq haqqında heç bir sübut yoxdur və onun müstəhəb (savab gətirən əməl) sayılması üçün heç bir fiqhi əsas mövcud deyil."

Mərhum Ayətullah Seyyid Möhsün Əmin Cəbəl Amuli: "Qılıncla baş yarmaq və yas mərasimlərində bu qəbildən olan əməllər ağlın hökmünə və şəriətə görə haramdır. Dünyada faydası və axirətdə də heç bir savabı olmayan başı yaralamaq, şəriətimizdə haram edilmiş cana əziyyət vermək anlamına gəlir. Bu əməl Əhli-Beytin xalqın gözündən düşməsinə və onların vəhşi simada əks etdirilməsinə səbəb olub. Heç şübhə yoxdur ki, bu kimi əməllər şeytan vəsvəsələrindən qaynaqlanır və bu işlərdə Allahın, Peyğəmbərin və Əhli-Beytin razılığı yoxdur. Əlbəttə, bu əməllərin adlarını dəyişdirmək onun mahiyyətini və şəriətdə haram olmasını dəyişdirə bilməz."

Mərhum Ayətullah Şəhid Seyyid Muhammməd Baqir Sədr: "Bu kimi işlər cahil insanların işidir. Odur ki, alimlər davamlı olaraq bu kimi işləri qadağan etmiş və haram olduğunu bildirmişlər."

Mərhum Ayətullah Fazil Lənkərani: "Qılıncla baş yarmaq mövzusu xalqın İmam Hüseynə (ə) daha çox marağ göstərməsinə sövq etdirmədiyi və onun müqəddəs hədəflərinə çatdırmadığı kimi pis nəticələr verməsinə də səbəb olur. Buna görə də İmam Hüseyn (ə)

məktəbinə bağlı insanlar bu işlərdən uzaq durmalıdır. Hətta öncədən bu işə nəzir etmiş olsalar belə nəzirləri düzgün hesab edilmir."

Mərhum Ayətullah Şəhid Mürtəza Mütəhhəri: "Bu kimi mərasimlər Ortodoks xristianlarının mərasimlərindən qaynaqlanıb."

Mərhum Ayətullah Məhəmməd Cavad Muğniyə: "Xoş olmayan bu işlər bidətdir (sonradan qondarmadır). Din və məzhəbdə heç bir yeri yoxdur."

Mərhum Ayətullah Meşkini: "Bu kimi işlər İslam şəriətində qəbul edilmir və bunlardan bəziləri zatən haramdır. Müsəlmanlar bu çeşid əməlləri İmam Hüseynin yas mərasimlərinə daxil etməkdən çəkinməlidirlər."

Ayətullah Cavadi Amuli: "İslamın zorakı din kimi tanınmasına və matəm məclislərinin təhqir edilməsinə səbəb olan əməllərə icazə verilmir. Qılıncla baş yarmaq və bunun kimi əməllərdən uzaq durmaq tövsiyə edilir."

Ayətullah Məkarim Şirazi: "Yas və matəm məclislər islam düşmənlərinin bəhanə gətirmələrinə və sui-istifadə etmələrinə səbəb olmayacaq şəkildə həyata keçirilməlidir. Mərasimlərin ciddiliyi qorunmalıdır. Bununla bağlı məzhəbin ləkələnməsinə səbəb olacaq işlərdən – sinə və baş yarmaq, kəsici alətlər vasitəsilə zəncir vurmaqdan – çəkinin."

Ayətullah Məzahiri İsfahani: "Qılıncla baş yarmaq və bunun kimi işlərə icazə verilmir."

Ayətullah Seyyid Kazım Hairi: "Qılıncla baş yarmaq kimi xurafatlar İslam dininin pis tanınmasına səbəb olur."

Ayətullah Nuri Həmədani: "Yas tutan əzizlər, qılıncları öz başlarınıza vurmaq əvəzinə islam
torpağlarını işğal etmiş insanara qarşı mübarizə aparın."

Ayətullah Şeyx Muhammməd Yaqubi: "Ağıldan kənar əməllərin edilməsi, cana zərər vermək, din və Əhli-Beyt məktəbinə xəyanət və təhqirə səbəb olacaq işlərə icazə verilmir. Buna görə də xəncər vurmaq və kəsici alətlərlə bədəndən qan çıxartmaqdan çəkinmək lazımdır."

Ayətullah Muhammməd Mehdi Asifi: "Bu işlər Aşuranın ülvi mesajının xalqa çatmasında pis təəssurat yaradır və İmam Hüseyn ardıcıllarının hörmətdən düşməsinə səbəb olur."

Ayətullah Seyyid Əli Sistani: "Yas və matəmə ləkə gətirəcək işlərdən çəkinək lazımdır"

Mərhum Ayətullah Mirzə Cavad Təbrizi: "Yas tutan əzizlər məzhəbin ləkələnməsi və islam düşmənlərinin sui istifadə etməsi üçün zəmin yaratmamalıdırlar. Yas mərasimi məzhəbin adına ləkə gətirməyəcək şəkildə keçirilməlidir."

Müəllif: Müslim Müslimov

Əzadarlıq məclislərinin tarixi kökləri

Məhərrəm ayının başlaması ilə dünyanın bəzi ölkələrində, o cümlədən Azərbaycanda da matəm məclisləri qurulur. Hətta qeyri-dindarlar belə toy etmir, əyləncələrdən çəkinirlər və s. Bu matəm ta

Səfər ayının sonuna qədər davam edir. Bəziləri bu ənənənin İslama zidd, sanki bir yamaq olduğunu deyirlər. Bəs həqiqətdə necədir? Məhərrəm əzadarlığı və matəmi İslama yamaqdır, yoxsa bunun bir əsası var? İslam.az-ın həmsöhbəti ilahiyyatçı hacı Samir Ağayevdir.

- İslam qaydalarına əsasən dünyasını dəyişənə 3 gün yas saxlanılır, peyğəmbər belə buyurub. Bəs nə üçün hər il Məhərrəm ayı müsəlmanlar matəmə qərq olurlar?

- Müsəlman ənənəsində ölüyə yas saxlamağın rəsmi müddəti üç gün olsa da, İmam Hüseynin (ə) şəhadət mərasimi bundan tamamilə fərqlənir. Peyğəmbərimizizn əziz nəvəsinin məzlumanə və faciəli şəkildə şəhadətə çatması müsəlmanların ürəyini elə yandırmışdır ki, üstündən 14 əsr keçməsinə baxmayaraq hələ də qeyd olunur, öz aktuallığını itirməmişdir. Onun indiyədək canlı qalması onu göstərir ki, müsəlmanlar bu hadisəyə sadəcə bir yas mərasimi kimi baxmamışlar, onlar bu böyük hərakatın mahiyyətini dərk edərək haqqın qələbə çalacağı günədək zülmə, haqsızlığa qarşı çıxmış imam Hüseyn (ə) ilə həmrəyliyini bildirirlər.

- Bu sonradan İslama gətirilmiş ənənədir, ya Əhli-beytin göstərişidir?

- Bu mərasimlərin geniş vüsət alması və indiki səviyyəyə gəlməsində ən mühüm rolu hz. Muhəmməd(s) və onun pak Əhlibeytindən (ə) bu faciə ilə bağlı bizə gəlib çatmış hədislər və göstərişlər oynayır. İlk olaraq Əhlibeytin (ə) özü İmam Hüseynə (ə) əza məclisləri qurub və bunu müsəlmanlara tövsiyə etmişlər.

- Bəs ilk dəfə belə məclis nə vaxt və kim tərəfindən təşkil olunub?

- Tarixi mənbələrə əsasən ilk əzadarlıq məclisi elə Əhlibeytin əsirlik dövründə Şamda Yezidin yalanları ifşa olduqdan sonra xanım Zeynəb (s.ə) və imam Zeynul-abidin (ə) tərəfindən keçirilmişdir. Bu əzadarlıq məclisi 3 gün davam etmişdir. (Təbərinin tarixi cild 4, səh.353)

Sonrakı əza məclisləri Əhlibeyt (ə) Mədinəyə qayıtdıqdan sonra bir il ərzində hər gün Xanım Zeynəb (s.ə), Peyğəmbərimizin (s) həyat yoldaşı, möminlər anası Ümmi-Sələmə və imam Zeynul-abidin (ə) tərəfindən keçirilmişdir. Bütün Mədinə camaatı matəmə qərq olmuşdu, xanım Zeynəbin (s.ə) etdiyi çıxışlar Yezid və Bəni-uməyyə hakimiyyətini ifşa etmiş və Mədinə camaatının onların əleyhinə qiyam etməsilə nəticələnmışdi. Zalım hakimiyyət qorxuya düşərək xanım Zeynəbi (s.ə) Misirə ya Şama sürgün etmişdir. (Savratul-Huseyn fil vicdaniş-şəbiyy, səh.265)

Sonrakı dövrlərdə Əhlibeyt imamları (ə) özləri bu əza məclislərini davam etdirmiş və tərəfdarlarına da bu barədə ciddi tapşırıqlar vermişlər. İmam Baqirdən (ə) nəql olunmuş hədisə əsasən o həzrətin bu cür buyurduğu qeyd olunub: İmam Hüseynin (ə) ziyarətinə gedə bilməyənlər öz evlərində əzadarlıq etməklə özləri və ailələri İmam üçün ağlasınlar, bu müsibətə görə bir-birilərinə başsağlığı versinlər. (Kamiluz-ziyarat, səh.175)

Bu əzadarlıq məclisləri ilk öncə Məhərrəmlik günlərində, Kərbəlada imamın ziyarəti günlərində, Şəbən ayının 15, Rəcəbin 1, Ramazan

bayramı gecəsi, Ərəfə günü və başqa vaxtlarda keçirilirdi. (Həmin mənbə)

Əməvi və Abbasi hakimiyyəti dövründə hakimiyyətin qoyduğu qadağalara baxmayaraq əza məclisləri qeyd olunan formada bu və ya digər şəkildə davam etdirilirdi.

Hicrətin 3, 4 və 5-ci əsrlərdə İraq və İranda Ali-buyə (Buveyhilər), Suriyada Həmdanilər, Misirdə Fatimilər, Yəməndə Zeydilərin hakimiyyətə gəlməsi ilə şiəlik güclənmiş və əzadarlıq məclisləri geniş vüsət alaraq dövlət səviyyəsində keçirilmişdir. Aşura günü umumi matəm kimi qeyri-iş günü elan edilmişdir.

Məşhur tarixçi İbn Əsir "əl-Kamilu fit-tarix" kitabında (cild 8, səh,549) bu cür yazır: “Hicri 252-ci ilin Məhərrəm ayında Muizzud-dövlət (Ali-buyə, Bağdadda) əmr verdi ki, dükanlar bağlansın, heç kəs işləməsin, camaat əzadarlıq etmək üçün küçələrə çıxsınlar”.

Beləliklə, ümumi əzadarlıq şiələr arasında ənənəyə çevrildi və bu ənənə indiyədək davam edir.

- Amma matəm yalnız Məhərrəm ayı ilə məhdudlaşmır…

- Məhərrəmlik ayından sonra Səfər ayında da müsəlmanların matəm keçirməsi, toy-şənliyin keçirməməsi İmamın qırxının, həmçinin hz. Muhəmməd (s) peyğəmbərin vəfatı, imam Həsən (ə) və imam Rzanın (ə) şəhadətlərinin bu aya təsadüf etdiyinə görədir.

- Bəs Ərbəinin xüsusi olaraq qeyd edilmə ənənəsi hardan qaynaqlanır?

- İmamın qırx mərasimini keçirtmək hədislərdə ən çox təkid olunmuş məsələlərdən biridir. Əhlibeyt imamları (ə) bu günə çox önəm vermiş və qırxda İmamı ziyarət etməyi möminin əlamətlərindən hesab etmişlər.

Qırxda İmam Hüseyni (ə) ziyarət etmək hətta Peyğəmbər səhabələri arasında da önəmli məsələ olmuşdur. Cabir ibn Abdullah Ənsari qırxda İmamı ziyarət edən ilk səhabədir. (Fərhənge Aşura, cim hərfi)

Bütün bu və digər səbəblər bu iki ayın - Məhərrəm və Səfərin matəm ayları kimi qeyd edilməsinə səbəb olmuşdur.

Müəllif: Hacı Samir Ağayev



AllahınPeyğəmbəri(s)buyurub:
«Kim yer üzünün göy əhli yanında
ən sevimli şəxsinə baxmaq
istəyirsə, Hüseynə baxsın.»